22 oktyabr 2021 №79 (1856)
www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
Qəzet 1991-ci ilin yanvarından çıxır

## Müstəqilliyimiz əbədidir, dönməzdir, sarsılmazdır!

"1991-ci il oktyabrın 18-də Azərbaycan XX əsrdə ikinci dəfə müstəqilliyə qovuşmaq imkanı qazanmış, "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı ilə özünün Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğunu dünyaya bəyan etmişdir" – bu sözlər Prezident İlham Əliyevin müstəqilliyin bərpasının 30-cu ildönümü münasibətilə Azərbaycan xalqına təbrik müraciətində vurğulanır.

Müraciətdə qeyd olunur ki, Azərbaycan müstəqilliyinin ilk illərində çoxsaylı təhlükələrlə üzləşmiş, ağır sınaqlardan keçmişdir. Daxili çəkişmələr, dövlət idarəçiliyində özbaşınalıq və səriştəsizlik, ağır siyasi və iqtisadi böhran şəraitində Azərbaycan torpaqları Ermənistan silahlı qüvvələri tərəfindən işğala məruz qalmışdır. Baş verənlər bir daha göstərmişdir ki, həqiqi müstəqilliyi qoruyub saxlamaq onu əldə etməkdən qat-qat çətindir.

*davamı səh. 2-də*

## Biz qayıtmışıq və yurd yerlərimizi yenidən qururuq

Bir il öncə bu günlər Vətən müharibəsinin döyüş meydanlarından rəşadətli Azərbaycan Ordusunun qalibiyyət xəbərləri gəlirdi. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin televiziya ilə xalqa hər müraciəti Ordumuzun Zəfər müjdəsi ilə bağlı idi. Bu müraciətləri işğaldan azad olunan şəhər-rayonların sakinləri xüsusi həyəcanla dinləyirdilər. Çünki həmin xoş müjdələr, ilk növbədə, torpaq həsrətli o insanlara ünvanlanırdı. Bir il sonra, tarixi qalibiyyətlərin ildönümündə dövlət başçısı yenə onlara xitab edir. Artıq bu dəfə azad torpaqlarda, onlarla üz-üzə görüşərək...



Oktyabrın 20-də Zəngilanın işğaldan azad edilməsinin ildönümündə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilan rayonunda səfərdə olublar. Dövlətimizin başçısı və birinci xanım rayonun Ağalı kəndində həyata keçirilən "Ağıllı kənd" layihəsi çərçivəsində görülən işlər, Zəngilan Beynəlxalq Hava Limanının tikintisi, Dövlət Sərhəd Xidmətinin Zəngilan rayonunda yerləşən hərbi hissə kompleksində yaradılan şəraitlə tanış olublar, "Azərişıq" ASC-nin Zəngilan Rəqəmsal Yarımstansiyasının təməlqoyma mərasimində və "Azərenerji"nin "Zəngilan" yarımstansiyasının açılışında iştirak ediblər.

Sonra Prezident və birinci xanım Zəngilan rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüblər.

"Mən ilk dəfə Zəngilana keçən ilin sonlarında gəldim, dekabr ayında və o vaxt heyran oldum bu diyara. Əzəmətli dağlar, yaşıl meşələr, çaylar, iqlim – bura, doğrudan da Azərbaycanın ən gözəl yerlərindən biridir və məqsədimiz də odur ki, Zəngilanı yenidən quraq. Çünki köhnə Zəngilandan bir şey qalmayıb. Siz indi görürsünüz, mənfur düşmən demək olar ki, bütün binaları dağıtmışdır. Bir neçə bina qalıb ki, orada hərbçilər yerləşirdi. Qalan bütün binaları, bütün kəndlərin binalarını bir məqsədlə dağıtmışlar ki, biz buraya qayıtmayaq. Amma biz qayıtmışıq, şanlı Ordumuz düz bir il bundan əvvəl Azərbaycan bayrağını Zəngilanda qaldırdı və düşməni bu torpaqlardan qovdu. Zəngilan azad olunandan sonra artıq yolumuz Qubadlıya açıldı və beş gün sonra Qubadlı azad olundu, ondan sonra da Laçın dəhlizinə çıxdıq. Laçın dəhlizinə çıxdıqda demək olar, düşmən də bildi ki, artıq müqavimət göstərməyin mənası qalmayıb", – deyə İlham Əliyev bildirib.

Prezident qeyd edib ki, indi Zəngilanın yeni dövrü başlayır və şəhərin baş planı artıq hazırlanır: "Bir xarici şirkət müsabiqədə qalib gəldi və hesab edirəm ki, yaxın aylarda baş plan təqdim ediləcək. Bütün bu təbii gözəllik nəzərə alınaraq müasir, çox gözəl bir şəhər qurulacaq, həmçinin də kəndlər. Siz də bilirsiniz ki, azad edilmiş bütün torpaqlarda birinci "Ağıllı kənd" layihəsi məhz Zəngilan rayonunda həyata keçirildi. Aprel ayında Ağalı kəndinin təməli qoyuldu. Bu gün mən buraya gəlməzdən əvvəl işin gedişatı ilə tanış oldum. Artıq bəzi binalar hazırdır və çalışacağıq ki, gələn ilin əvvəli, bəlkə də bu ilin sonu zəngilanlıları Zəngilana köçürməyə başlayaq".

Dövlət başçısı diqqətə çatdırıb ki, Zəngilanın işğaldan azad olunmasından sonra bu rayona dördüncü dəfədir gəlir və ötən müddətdə rayonun yenidən qurulması istiqamətində mühüm addımlar atılıb: "Dekabr ayında gəlmişdim, o vaxt vəziyyətlə tanış olduq. Ondan sonra fevral ayında gəlmişdim, o vaxt ermənilər tərəfindən bir çox hissəsi dağıdılmış Bəsitçay qoruğunda çinar ağacları əkdik. Aprel ayında gələndə hava limanının təməli qoyuldu. İndi oraya baş çəkdim, artıq zolağın torpaq işləri hazırlanır. Bilirsiniz ki, sovet vaxtında Zəngilanda hava limanı yox idi. Amma indi nəinki hava limanı, beynəlxalq hava limanı olacaq və Zəngilan ölkəmizin nəqliyyat-logistika mərkəzinə çevriləcək. Çünki Zəngəzur dəhlizi buradan keçir, dəmiryolu, Horadiz-Ağbənd avtomobil yolu tikilir. Zəngəzur dəhlizinin açılması ilə bağlı son hadisələr onu göstərir ki, istədiyimizə nail oluruq. Birinci mərhələdə Ermənistan tərəfi müqavimət göstərsə də, indi özləri artıq buna razılaşıblar. Burada, əlbəttə ki, yumşaq desək, bizim rolumuz az deyil. Ona görə artıq avtomobil yolunun açılışı məsələsi həll olunur, dəmiryolu məsələsi həll olunur...".

Rayonda turizm, kənd təsərrüfatı, ətraf mühitin qorunması istiqamətində də işlərin görüldüyünü deyən dövlət başçısı vurğulayıb ki, Zəngilan ölkə üzrə çox müasir və böyük əhəmiyyətə malik olan bölgəyə çevriləcək.

Qeyd edək ki, Prezident İlham Əliyev oktyabrın 20-də Zəngilan şəhərinin baş planının hazırlanması ilə və Zəngilan rayonu ərazisindəki Bəsitçay Dövlət Təbiət Qoruğunun fəaliyyəti ilə bağlı sərəncamlar imzalayıb.

## "Kamil Əliyev: rəssam və dövr"

Oktyabrın 21-də Azərbaycan Milli Xalça Muzeyində "Kamil Əliyev: rəssam və dövr" adlı sərginin açılış mərasimi keçirildi. Sərgi Kamil Əliyevin (1921-2005) 100 illiyi haqqında dövlət başçısının müvafiq sərəncamına əsasən Mədəniyyət Nazirliyi ilə Milli Xalça Muzeyi tərəfindən təşkil olunub.




Muzeyin direktoru Şirin Məlikova qonaqları salamlayaraq diqqətə çatdırdı ki, Xalq rəssamı Kamil Əliyev ömrünü xalqımızın həyatında müstəsna yer tutan xalça sənətinin parlaq ənənələrinin yaşadılmasına və inkişafına həsr edib: "Onun yaratdığı portret-xalçalar mədəniyyətimizin qızıl fondunun inciləridir. Kamil Əliyevin misilsiz nailiyyəti – xalçanın səthində realistik, sanki canlı insan obrazını yaradan ən incə rəng, işıq-kölgə çalarları ilə işləmək bacarığı idi".

Qeyd olundu ki, sərgidə Xalq rəssamının 29 əsəri təqdim edilir. Ekspozisiyada Xalça Muzeyinin eksponatları ilə yanaşı, Milli İncəsənət Muzeyi və sənətkarın ev-muzeyində qorunub saxlanılan xalça eskizləri, onların əsasında toxunan xalçalar da nümayiş olunur: "Kamil Əliyev muzeyimizlə sıx əməkdaşlıq edib. Burada onun fərdi sərgiləri keçirilib, yubileylərinə həsr edilmiş kataloqlar nəşr edilib. Bu gün də sənətkarın xalçaları daimi ekspozisiyamızı bəzəyir".

*davamı səh. 2-də*

## Vokal musiqisi bayramı sona çatdı

Klassik musiqini sevənlər, zövqünü opera, vokal sənəti ilə cilalayanlar üçün sənət bayramına çevrilən daha bir layihə uğurla yekunlaşdı. Mədəniyyət Nazirliyinin dəstəyi, Heydər Əliyev Sarayının təşkilatçılığı ilə 15-20 oktyabr tarixində keçirilən II Beynəlxalq Vokalçılar Festivalı başa çatdı.



Oktyabrın 20-də Heydər Əliyev Sarayında festivalın bağlanış mərasimi keçirildi. Mərasimdə çıxış edən mədəniyyət naziri Anar Kərimov musiqisevərləri təbrik edərək beynəlxalq miqyasda musiqi əlaqələrinin genişləndirilməsi üçün belə tədbirlərin önəmini vurğuladı. Festivalın Azərbaycan klassik vokal musiqisinin inkişafı və təbliği, gənc nəsildə yüksək musiqi zövqünün formalaşdırılması, yeni istedadların üzə çıxarılması məqsədilə keçirildiyini diqqətə çatdıran nazir bildirdi ki, opera sənəti ümumbəşəri dəyərdir və onun ölkəmizdə də çox zəngin ənənələri var.

Qeyd olundu ki, müsəlman Şərqində ilk opera nümunəsi – "Leyli və Məcnun" operası ötən əsrin əvvəllərində dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyli tərəfindən yazılıb, ondan sonra milli opera sənətimizin bir çox dəyərli nümunələri ərsəyə gəlib. Beləcə, Azərbaycan opera sənətinin fərqli və peşəkar nümunələri ilə dünya opera xəritəsində özünə yer tuta bilib.

*davamı səh. 3-də*




## Ölkəmiz Frankfurt Beynəlxalq Kitab Yarmarkasında təmsil olunur

Oktyabrın 20-də Almaniyanın Frankfurt-Mayn şəhərində 73-cü Beynəlxalq Kitab Yarmarkası işə başlayıb. Dünyanın kitabla bağlı ən böyük tədbirlərindən sayılan Frankfurt yarmarkası bu il "Yenidən əlaqə qur" devizi altında keçirilir. 80 ölkənin təmsil olunduğu sərginin fəxri qonağı Kanadadır.

Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Azərbaycan builki sərgidə yenilənmiş dizayna malik stend və geniş çeşiddə nəşrlərlə təmsil olunur. Vətən müharibəsində qazanılan Zəfər, ölkəmizdə cari ilin "Nizami Gəncəvi İli" olması nəşrlər və vizual təqdimatlarla yanaşı, keçirilən tədbirlərlə də ziyarətçilərin diqqətinə çatdırılacaq.

Kitab işi sahəsində çalışan minlərlə mütəxəssisi bir yerə toplayan Frankfurt yarmarkası yeni əməkdaşlıq qurmaq və təcrübə mübadiləsi üçün mühüm platformadır. Pandemiya səbəbindən sərgiyə qatıla bilməyənlər onlayn yayımlanan görüş və tədbirləri izləyə bilirlər.

73-cü Frankfurt Beynəlxalq Kitab Yarmarkası oktyabrın 24-dək davam edəcək.

## Sankt-Peterburqda dahi Azərbaycan şairinin 880 illik yubileyi qeyd olunub

2021-ci ilin "Nizami Gəncəvi İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamına əsasən, dünyanın bir çox ölkələrində, o cümlədən Rusiya Federasiyasında dahi Azərbaycan şairi və mütəfəkkirinin 880 illik yubileyinə həsr olunan tədbirlər keçirilir. "Nizami Gəncəvi İli" çərçivəsində növbəti tədbir Rusiyanın Sankt-Peterburq şəhərində gerçəkləşib.

Bununla əlaqədar Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini Sevda Məmmədəliyevanın rəhbərliyi ilə nümayəndə heyəti Sankt-Peterburqa səfər edib.

Oktyabrın 19-da mədəniyyət nazirinin müavini Sevda Məmmədəliyeva ilə Dövlət Ermitajının direktoru Mixail Piyotrovski arasında görüş keçirilib. Görüşdə Dövlət Ermitajı ilə Azərbaycan muzeyləri arasında əməkdaşlığın genişləndirilməsi,



Ermitajda saxlanılan ölkəmizin mədəni irs nümunələrinə xüsusi diqqətin ayrılması, gələcək əməkdaşlıq perspektivləri barədə fikir mübadiləsi aparılıb.

*davamı səh. 2-də*

## Dünyanı bəzəyən Nizami heykəlləri

Prezident İlham Əliyevin 5 yanvar 2021-ci il tarixli sərəncamı ilə bu il ölkəmizdə "Nizami Gəncəvi İli" elan olunub. 880 illik yubileyini qeyd etdiyimiz dahi şair və mütəfəkkirin əsərləri, ideyaları hələ əsrlər öncədən dünyaya yayılıb və insanlığın diqqətini cəlb edib. Nizaminin ədəbi ənənələrinin əhatəsi elə geniş olub ki, təkcə vətəni Azərbaycanda deyil, türk-islam aləmində də onun poeziya yolunun davamçıları yetişib.

Əsərləri onlarla dilə tərcümə edilən Nizaminin bənzərsiz yaradıcılığı insanlığı sülhə, bərabərliyə, birliyə çağırdığına görə o, bir dünya şairidir və bir sıra ölkələrdə əsərləri çap olunub, abidələri ucaldılıb, adı əbədiləşdirilib. Böyük mütəfəkkirin xarici ölkələrdəki heykəlləri təkcə Nizaminin yox, ümumilikdə Azərbaycan ədəbiyyatının və mədəniyyətinin təbliğinə xidmət edir. Bu yazıda Nizaminin ölkəmizdən kənarda qoyulmuş heykəllərindən söz açacağıq.

*davamı səh. 7-də*

### Mədəniyyət Nazirliyinin yeni layihəsi




*səh. 3*

### Bakıda "Qarabağın bərpa, yenidənqurma və inkişafı" sərgisi keçirilir

*səh. 3*




### "Biz" filmi festivalda mükafat qazanıb

*səh. 8*

№79 (1856)
22 oktyabr 2021
www.medeniyyet.az

# “Müstəqillik Günü haqqında” qanun qüvvəyə minib

Xəbər verildiyi kimi, oktyabrın 15-də Azərbaycan Respublikasının Milli Məclisi “Müstəqillik Günü haqqında” qanun layihəsini üçüncü oxunuşda qəbul edib. “Müstəqillik Günü haqqında” Azərbaycan Respublikasının Qanunu Prezident İlham Əliyev tərəfindən imzalanıb və rəsmi mətbuatda dərc olunaraq qüvvəyə minib.

Yeni qanun 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti ilə 1991-ci ildə müstəqilliyini bərpa edən Azərbaycan Respublikası arasında tarixi varisliyi hüquqi müstəvidə bir daha təsbit edir.

“2021-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının müstəqilliyinin bərpa edilməsinin 30 ili tamam olur. Azərbaycan xalqı 1991-ci ildən sonra ilk dəfə bu bayramı tam fərqli olaraq, öz ərazi bütövlüyünü bərpa etmiş qalib xalq kimi qeyd edir. Bu baxımdan dövlətçilik tariximizdə müstəsna əhəmiyyətli mərhələlərin, xüsusən müstəqilliyin əldə edilməsi və bərpası kimi tarixi günlərin onların mahiyyəti və məzmununa uyğun daha dəqiq ifadə olunması böyük önəm kəsb edir”, – deyə qanunda vurğulanır.

Qanunda 1918-ci il mayın 28-də İstiqlal Bəyannaməsi ilə Azərbaycan Respublikasının dövlət müstəqilliyinin elan olunduğu, 1991-ci il oktyabrın 18-də isə “Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında” Konstitusiya Aktı ilə Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa olunduğu nəzərə alınaraq 28 May Müstəqillik Günü, 18 Oktyabr Müstəqilliyin Bərpası Günü elan edilib.

# Müstəqilliyimiz əbədidir, dönməzdir, sarsılmazdır!

*əvvəli səh. 1-də*

“Azərbaycan tarixinin bu ağır dönəmində ulu öndər Heydər Əliyev xalqın tələbi ilə hakimiyyətə qayıtdı. Yalnız bundan sonra müstəqilliyin yenidən itirilməsi təhlükəsinin qarşısı alındı. Qısa müddətdə ölkəmizin müstəqil daxili və xarici siyasət strategiyasının təməl prinsipləri müəyyən olundu, ictimai-siyasi sabitlik, dövlət intizamı təmin edildi, demokratik islahatların həyata keçirilməsinə və ordu quruculuğu prosesinə başlanıldı”, – deyə müraciətdə bildirilir.

Müraciətdə vurğulanır ki, uzun illər ərzində Azərbaycanın hərtərəfli inkişafı üçün rəhbər tutulan strateji xəttin, ölkəmizin daha da güclənməsi üçün görülən fasiləsiz işlərin məntiqi nəticəsi isə tarixi ədalətin bərqərar olması – Vətənimizin ərazi bütövlüyünün təmin edilməsi olmuşdur. Tarixi Qələbəmiz həm ölkəmizin, həm də bütövlükdə regionun inkişafında yeni dövrün başlanğıcıdır. Bizə Zəfər bəxş etmiş bütün igid oğullarımıza bir daha minnətdarlığımızı bildirir, Vətənimizin ərazi bütövlüyü naminə canlarından keçmiş şəhidlərimizin əziz xatirəsini ehtiramla yad edirik.

Müraciət bu sözlərlə bitir: “Bu gün biz 30 illik müstəqillik tariximizdə ilk dəfə olaraq müstəqilliyimizin bərpasının ildönümünü ərazi bütövlüyünü təmin etmiş qalib xalq kimi qarşılayırıq. Yaxın tariximizin bu əlamətdar hadisəsi münasibətilə bütün Azərbaycan xalqını bir daha ürəkdən təbrik edir, ən xoş arzularımı yetirirəm.

Müstəqilliyimiz əbədidir, dönməzdir, sarsılmazdır!”.

# Füzuli Memorial Kompleksi ilə bağlı sərəncam imzalanıb

Prezident İlham Əliyev oktyabrın 17-də Füzuli Memorial Kompleksinin layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb. Sərəncama əsasən, 2021-ci il dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün nəzərdə tutulan vəsaitdən Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə ilkin olaraq 1,5 milyon manat ayrılıb.

Qeyd edək ki, memorial kompleks Füzuli şəhərində yaradılacaq Füzuli İşğal Muzeyi və Memorial Parkı, Füzuli Zəfər Muzeyi, Füzuli Zəfər Abidəsi və Füzuli Bayraq Meydanını əhatə edəcək.

# Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə

Prezident İlham Əliyev oktyabrın 16-da Azərbaycan Respublikasının mədəniyyət xadimlərinə fəxri adların verilməsi haqqında sərəncam imzalayıb. Sərəncama əsasən, Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə 3 nəfərə “Xalq rəssamı”, 12 nəfərə “Əməkdar rəssam”, 21 nəfərə “Əməkdar artist”, 7 nəfərə “Əməkdar mədəniyyət işçisi” fəxri adı verilib.

Prezident İlham Əliyev oktyabrın 16-da, həmçinin Azərbaycan Respublikasının mədəniyyət xadimlərinin təltif edilməsi haqqında sərəncam imzalayıb. Sərəncama əsasən, 5 nəfər mədəniyyət xadimi 3-cü dərəcəli “Əmək” ordeni ilə, 35 nəfər “Tərəqqi” medalı ilə təltif olunub.

# Milli Xalça Muzeyində Kamil Əliyevə həsr olunmuş beynəlxalq konfrans

Oktyabrın 21-də Azərbaycan Milli Xalça Muzeyində Xalq rəssamı Kamil Əliyevin 100 illik yubileyinə həsr olunmuş “Rəssam və xalça: bu gün və sabah” adlı beynəlxalq elmi-praktik konfrans işə başlayıb.

Konfrans Mədəniyyət Nazirliyi və Azərbaycan Milli Xalça Muzeyinin təşkilatçılığı ilə hibrid formatda (canlı və onlayn iştirak) keçirilir. Tədbirə Azərbaycan, Türkiyə, Yaponiya, Argentina, Ukrayna, Türkmənistan, Rusiya, Latviya, Avstriya, Almaniya, Özbəkistan, Qazaxıstan, Qırğızıstandan 30-dan çox mütəxəssis qatılıb.

Konfrans iştirakçılarını salamlayan muzeyin direktoru Şirin Məlikova peşəkar xalçaçılıq sənəti tarixində Kamil Əliyevin tutduğu yerdən danışıb. “Kamil Əliyev: rəssam və dövr” adlı məruzə ilə çıxış edən Ş.Məlikova bildirib ki, Milli Xalça Muzeyində rəssamın əsərlərindən ibarət dəyərli kolleksiya qorunub saxlanılır: “Burada rəssamın müəllifi olduğu və bir hissəsi daimi ekspozisiyaya daxil edilmiş 29 müəllif xalçası, həmçinin 702 eskiz və texniki rəsm, planşetlər, basma və qələmkar texnikasında hazırlanmış üç süfrə və ipək şarf, rəssamın eskizi əsasında ornamentlə bəzədilmiş çini nahar dəsti və kiçik fotoarxiv qorunur. Kamil Əliyevə dünya şöhrəti qazandıran onun portret xalçaları olub. Sənətkar bu janrı xalçaçılığın bu gün də yüksək tələbat olan bir qoluna çevirməyə müvəffəq olub”.

Konfransda Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru, akademik Rafael Hüseynov “Müsəlman Şərqinin xalça dili və ənənələri müstəvisində Azərbaycan xalça dili və dialektlərinin özünəməxsusluqları” mövzusunda məruzə ilə çıxış edib.

İkigünlük konfransda “Xalçaçı rəssamlar ənənə çərçivəsində”, “Xalça müasir rəssamların yaradıcılığında”, “Müasir xalça sahəsində kurator layihələri”, “Azərbaycanın müasir xalça sənəti” mövzularında məruzələr dinləniləcək.

# “Füzuli rayonunda icra edilən layihələr bizim həm niyyətimizi, həm potensialımızı göstərir”

Xəbər verildiyi kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 17-də Füzuli rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb.




“İşğal dövründə mən Füzuli rayonunun bizdə olan hissəsinə, ərazilərinə dəfələrlə gəlmişdim, 12 dəfə Füzuli rayonunda olmuşdum. Rayonun inkişafı ilə bağlı çox böyük işlər görüldü. Horadiz qəsəbəsinə şəhər statusu verildi və Horadiz Füzuli rayonunun qeyri-rəsmi mərkəzi müəyyən edilmişdir. Böyük sosial infrastruktur layihələri icra edildi - 24 məktəb, 2 xəstəxana, Olimpiya İdman Kompleksi, Gənclər Mərkəzi, Tarix-Diyarşünaslıq Muzeyi, Muğam Mərkəzi tikildi. İnfrastrukturla bağlı çox böyük işlər görülmüşdür. Fərdi evlərin bərpası işləri görülmüşdür. Yəni, Füzuli rayonunun inkişafı ilə bağlı çox genişmiqyaslı işlər aparılırdı. Qeyd etdiyim kimi, 12 dəfə Füzulidə olmuşam. Burada köçkünlərlə görüşərək hər zaman onlara deyirdim ki, Füzuli şəhəri və rayonun qalan hissəsi azad olunandan sonra biz daha yaxşı evlər tikəcəyik, daha gözəl şərait yaradacağıq və siz qayıdacaqsınız. Bu gün artıq bunu hər kəs görə bilir. Çünki Füzuli rayonunda artıq icra edilən layihələr bizim həm niyyətimizi, həm potensialımızı göstərir”, – deyə Prezident İlham Əliyev rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdə bildirib.

Dövlət başçısı diqqətə çatdırıb ki, cəmi 8 ay ərzində Füzuli Beynəlxalq Hava Limanı inşa edilib. Füzulidən Şuşaya elektrik xətləri çəkilib: “Füzulidə yarımstansiya açıldı və ikinci yarımstansiyanın təməli bu gün qoyulmuşdur... Şuşaya qədər Zəfər yolunu çəkdik və indi Füzuli-Şuşa magistral yolunun çəkilişi gedir. Hazırda Füzuli-Hadrut, Füzuli-Cəbrayıl, Füzuli-Ağdam yollarında işlər gedir. Bu gün Füzuli-Ağdam istiqamətində yeni yolun təməli qoyuldu. Eyni zamanda, Ağdama gedən qonaqlar, vətəndaşlar Füzuli Beynəlxalq Hava Limanından istifadə edə bilərlər. Yəni, Füzuli Beynəlxalq Hava Limanı Qarabağın hava qapısıdır.

Bütün bu işləri görərək biz bir məqsədi güdürdük ki, keçmiş köçkünləri tezliklə öz doğma torpaqlarına qaytaraq. Bu gün təməl daşının qoyulması mərasimlərində iştirak edərkən biz artıq bu günü də böyük dərəcədə yaxınlaşdırmışıq. Bu gün Dövlətyarlı kəndinin inkişaf konsepsiyası təsdiq edildi, təməli qoyuldu. “Ağıllı kənd” konsepsiyası əsasında Dövlətyarlı kəndində böyük yaşayış məntəqəsi yaradılacaq. Beş kəndi birləşdirən bu layihə, ümid edirəm ki, gələn ilin sonuna qədər keçmiş köçkünlərin sərəncamına veriləcək. Birinci mərhələdə 450 evin tikintisi nəzərdə tutulur. Ondan sonra əlavə 300 evin tikintisi nəzərdə tutulur və bu, Füzuli rayonunda birinci yaradılacaq yaşayış mərkəzi olacaqdır”.

Füzuli şəhərinin baş planının artıq hazır olduğunu diqqətə çatdıran Prezident İlham Əliyev deyib: “Bizim mütəxəssislərimiz bu plan üzərində uzun aylar ərzində işləyiblər. Bu gün biz hamımız bu layihə ilə bir daha tanış olarıq. Zəfər muzeyinin, İşğal muzeyinin təməli qoyulacaq.

Füzuliyə həyat qayıdır və qayıdacaq. Əminəm ki, maksimum qısa müddət ərzində Füzuli şəhəri də, rayonun kəndləri də çiçəklənəcək. Biz azad edilmiş ərazilərdə ən müasir texnologiyaları tətbiq edirik. Bu, artıq reallıqdır. Bunu mən müharibə başa çatandan dərhal sonra bəyan etmişdim və bunu bu gün hər kəs görə bilir. Zəngilanda birinci kəndin inşası başa çatmaq üzrədir. Ağdam şəhərinin baş planı təsdiqləndi, işlərə start verildi. Cəbrayılın baş planı təsdiqləndi. Artıq göstəriş verildi və vəsait ayrıldı, digər şəhərlərimizin – Zəngilan, Qubadlı, Kəlbəcər və Laçının baş planları hazırlanır”.

Qeyd edək ki, dövlət başçısının rayon ictimaiyyəti nümayəndələri ilə görüşündən sonra Füzuli şəhərinin baş planının təqdimatı olub, Füzuli Memorial Kompleksinin və şəhərdə salınacaq çoxmənzilli yaşayış məhəlləsinin təməli qoyulub. Bildirilib ki, 17,8 hektar ərazini əhatə edəcək yaşayış məhəlləsi mərhələli şəkildə tikilib istifadəyə veriləcək. İlk mərhələdə 65 mənzilli 4-5 mərtəbəli yaşayış binaları inşa ediləcək. Məhəllədə çoxfunksiyalı binalar da olacaq. Ümumilikdə məhəllədə 2860 nəfərin yaşaması nəzərdə tutulur.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva səfər zamanı Füzuli Beynəlxalq Hava Limanında yaradılan şəraitlə də tanış olublar. Hava limanında istənilən tip hava gəmisini qəbul etməyə imkan verən, uzunluğu 3000 metr, eni 60 metr olan uçuş-enmə zolağı istismara verilib, saatda ən azı 200 sərnişinin buraxılışına imkan verən terminalın tikintisi başa çatdırılıb.

Dövlət başçısı və birinci xanım Füzuli şəhərində Rəqəmsal Stansiya İdarəetmə Mərkəzinin təməlqoyma tədbirində də iştirak edib, Füzulidə yaradılacaq Mərkəzi şəhər parkında ağac əkiblər.

# Sankt-Peterburqda dahi Azərbaycan şairinin 880 illik yubileyi qeyd olunub

*əvvəli səh. 1-də*

Həmin gün Dövlət Ermitajında dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 880 illik yubileyi qeyd olunub. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və ölkəmizin Sankt-Peterburqdakı Baş Konsulluğunun təşkilatçılığı ilə keçirilən tədbir 1941-ci ildə məhz bu məkanda Nizami Gəncəviyə həsr olunan tarixi tədbirin 80-ci ildönümünə təsadüf edib.



Mərasimdə çıxış edən Ermitaj Muzeyinin direktoru Mixail Piotrovski Nizami Gəncəvi dühasından danışaraq bildirib ki, böyük Azərbaycan şairinin yaradıcılığı Yaxın və Orta Şərqdə fəlsəfi cərəyanların, ədəbi məktəbin əsasını qoyub. Nizami Gəncəvi əsərlərinin mövzuları əsasında çəkilmiş miniatürlər bu gün dünyanın ən məşhur muzeylərini və kitabxanalarını bəzəyir.

M.Piotrovski xatırladıb ki, 80 il öncə, Böyük Vətən müharibəsi dövründə və Sankt-Peterburqun – o vaxtkı Leninqradın blokadasının 42-ci günündə Nizaminin 800 illik yubileyi Ermitajda qeyd olunub.

Tədbirdə çıxış edən mədəniyyət nazirinin müavini Sevda Məmmədəliyeva Ermitajda “Nizami Gəncəvi İli” çərçivəsində belə bir tədbirin keçirilməsinin əhəmiyyətini diqqətə çatdırıb. Vurğulanıb ki, 1941-ci ilin 19 oktyabr tarixində, şəhərin blokadada olduğu bir vaxtda Dövlət Ermitajında Nizaminin 800 illik yubileyinin qeyd olunması Azərbaycanın böyük şairinə verilən yüksək dəyərin təzahürü idi və Nizaminin 880 illiyinin də məhz eyni tarixdə Ermitajda qeyd edilməsi çox mühüm və əlamətdar hadisədir.

Tədbirdə Ermitajın fondunda saxlanılan Nizami Gəncəvinin “Xəmsə”sinin nadir nüsxəsi nümayiş olunub, dahi şairin yaradıcılığına dair məruzələr dinlənilib, onun əsərlərinin motivləri üzrə çəkilmiş və hazırda Dövlət Ermitajında və Sankt-Peterburqdakı Rusiya Milli Kitabxanasında qorunub saxlanılan miniatürlər haqqında geniş təqdimatlar keçirilib.

Sonda konsert proqramı təqdim olunub. Sankt-Peterburq Dövlət Akademik Mariinski Teatrının azərbaycanlı vokalçıları Məhərrəm Hüseynov və Həmid Abdulov, pianoçu Vurğun Vəkilov Nizami Gəncəvinin əsərlərinə yazılmış musiqiləri ifa ediblər. Həmçinin ölkəmizin incəsənət xadimlərinin (xanəndə Teyyub Aslanov, tarzən Əliağa Sədiyev, kamança ifaçısı Elnur Mikayılov, nağara ifaçısı Kamran Kərimov, ud ifaçısı Mircavid Cəfərov) ifasında muğam parçaları səsləndirilib.

Konsert proqramı alqışlarla qarşılanıb.

# “Kamil Əliyev: rəssam və dövr”

## Görkəmli xalçaçı rəssamın 100 illiyi münasibətilə sərgi açıldı

*əvvəli səh. 1-də*

Mərasimdə çıxış edən mədəniyyət naziri Anar Kərimov bildirdi ki, Kamil Əliyev öz yaradıcılığı ilə Azərbaycan xalça sənətinə böyük töhfələr bəxş edib. Onun yaratdığı çoxsaylı portret və zəngin ornamental xalçalar qiymətli mədəni sərvətimizdir.



Nazir bildirdi ki, Kamil Əliyevin 100 illik yubileyinin qeyd edilməsi ilə bağlı Prezident İlham Əliyev tərəfindən imzalanan sərəncam sənətə və sənətkarlara verilən yüksək dəyərin göstəricisidir: “Bundan öncə də rəssamın yubileyləri dövlət səviyyəsində təntənəli şəkildə keçirilmişdir. Milli mədəniyyətimizin yaşadılması və təbliğinə böyük önəm verən ümummilli lider Heydər Əliyev tərəfindən Kamil Əliyevin yaradıcılığı hər zaman yüksək qiymətləndirilmişdir. Ulu öndər sənətkarın yaradıcılığı haqqında demişdir: “Onun əsərləri Azərbaycan xalçaçılıq sənətində, rəssamlıq məktəbində daim yaşayacaq və çox görkəmli əsərlər kimi Azərbaycan mədəniyyəti xəzinəsində öz yerini tutacaq”.

Anar Kərimov qeyd etdi ki, maddi-mənəvi irsimizi qorumaq, gələcək nəsillərə ötürmək dövlətimizin müəyyən etdiyi mədəniyyət strategiyasının prioritetlərindəndir. Azərbaycan xalça sənəti də beynəlxalq səviyyədə layiqincə təbliğ olunaraq UNESCO-nun Qeyri-maddi-mədəni irs siyahısına daxil edilib. Bu mühüm nailiyyət Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və İCESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın böyük dəstəyi ilə əldə edilib.

Nazir vurğuladı ki, Xalq rəssamı Kamil Əliyevin yaradıcılığı xalça irsimizin ayrılmaz hissəsidir: “Onun əsərləri ilə Azərbaycanın müasir xalçaçılıq sənəti bədii və texniki baxımdan zəriflik, rəng həllinə görə isə çoxçalarlılıq qazanmışdır. Rəssam xalça üzərində Nizami Gəncəvi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli kimi Azərbaycanın görkəmli şair və mütəfəkkirlərinin, ümummilli lider Heydər Əliyev və digər dövlət xadimlərinin monumental portretlərini yaratmışdır. İstedadlı sənətkarın xalçaları və xalça eskizləri ölkəmizdə, həmçinin Paris, London, Tokio, Dehli, Ankara, İstanbul, Tehran, Moskva, Kiyev və digər şəhərlərin muzey və qalereyalarında sərgilənmişdir”.

Nizami adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru, millət vəkili, akademik Rafael Hüseynov bildirdi ki, Kamil Əliyev təkcə xalçaçılıq sənəti deyil, ümumi mədəniyyətimiz üçün sərvətdir.

Azərbaycan Rəssamlar İttifaqının sədri, Xalq rəssamı Fərhad Xəlilov Kamil Əliyev sənətindən söz açaraq bildirdi ki, onun yaratdığı xalçalar illər sonra da insanlara incə zövq bəxş edəcək.

Xalq rəssamı Eldar Mikayılzadə Kamil Əliyevlə birgə çalışdığı illəri xatırladı.

Xalçaçı, toxucu, uzun illər Kamil Əliyevlə birgə çalışmış Ədibə Musayeva portret xalçaların yaradılması ilə bağlı xatirələrini bölüşdü.

Sənətkarın qızı, rəssam Nərminə Əliyeva sərginin təşkilinə görə minnətdarlığını bildirdi.

Sonra qonaqlar sərgi ilə tanış oldular.

Milli Xalça Muzeyində “Kamil Əliyev: rəssam və dövr” sərgisi noyabrın 21-dək davam edəcək.

**Lalə AZƏRİ**

əvvəli səh. 1-də

Ölkəmizdə opera sənəti ilə bərabər vokal ifaçılığının da böyük inkişaf yolu keçdiyini bildirən Anar Kərimov bu sənətin görkəmli nümayəndəsi Bülbülün davamçılarının Azərbaycanı beynəlxalq səviyyədə tanıtdıqlarını, vokal nümunələrimizin istedadlı musiqiçilər tərəfindən dünyanın məşhur musiqi, sənət meydanlarında səsləndirildiyini və böyük tamaşaçı rəğbəti qazandıqlarını dedi.

Nazirliyin opera sənətinin ölkəmizdə daha da inkişaf etməsi və kütləviləşməsində maraqlı olduğunu vurğulayan Anar Kərimov bu istiqamətdə əhəmiyyətli layihələrə bundan sonra da dəstək veriləcəyini bildirdi. Azərbaycanın artıq 5 ildir ki, "Avropa Opera" (Opera Europa) təşkilatına üzv olduğu və təşkilat vasitəsilə opera sənəti və bu sahədə istedadlı gənclərin aşkarlanması və tanıdılması istiqamətində addımlar atıldığını diqqətə çatdırdı.

Bakıda 2019-cu ildə keçirilən ilk vokalçılar festivalının tədbirlər coğrafiyasının bu dəfə genişləndiyini və paytaxtdan kənarda da vokal musiqisi konsertləri keçirildiyini deyən nazir festivalın bundan sonra da uğurla gerçəkləşəcəyini, yeni ifaların musiqi zövqümüzü daha da zənginləşdirəcəyini söylədi.

# Vokal musiqisi bayramı sona çatdı

## Belə tədbirlər klassik musiqiyə marağı artırır, gənc, istedadlı ifaçılara sənət meydanı açır



Sonra layihəyə təşkilati dəstək verən "OperaVision TV"nin rəhbəri Luke O Shaugness çıxış etdi. O, festival konsertlərini həm canlı, həm də opera televiziyası vasitəsilə izləyən sənətsevərləri təbrik edərək belə tədbirlərin klassik musiqiyə marağı artırdığını və sənətsevərlərə yeni gənc, istedadlı səsləri dinləyib seçmək imkanı verdiyini dedi. Azərbaycanın belə bir tədbirə ev sahibliyi etməsini gözəl hal kimi dəyərləndirən qonaq beynəlxalq musiqi əlaqələrinin inkişafı və vokalçılar üçün yeni-yeni səhnələrin yaranmasını alqışladı.

Tədbirdə Azərbaycan klassik vokal məktəbi ənənələri barədə də ətraflı məlumat verildi, Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və yaradıcı qurumlar tərəfindən dəstəklənən musiqi layihələrinin bu sənətin inkişafına vəsilə olduğu vurğulandı.

Bildirildi ki, II Azərbaycan Beynəlxalq Vokalçılar Festivalı çərçivəsində konsert proqramları ilə yanaşı, konfrans və təqdimatlar keçirilib, həmçinin gənc ifaçılara sənət meydanı açılıb.

O da diqqətə çatdırıldı ki, oktyabr ayında (25 oktyabr – red.) dünyada Opera günü qeyd olunur və vokalçılar festivalının da bu ayda gerçəkləşməsi əlamətdar hadisədir.

Qeyd olundu ki, festival çərçivəsində Heydər Əliyev Sarayı, Azərbaycan Dövlət Akademik Filarmoniyası, Beynəlxalq Muğam Mərkəzi, Azərbaycan Milli Konservatoriyası, Bakı Musiqi Akademiyası və Gəncə Dövlət Filarmoniyasında bir-birindən maraqlı konsertlər təqdim olunub.

Festivalın yekun konserti də sənətsevərlərə klassik musiqi zövqü yaşatdı. Bağlanış mərasimində Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının simfonik orkestri və xorunun (dirijor – Əməkdar artist Əyyub Quliyev) müşayiəti ilə yerli və qonaq solistlər "Koroğlu", "Don Juan", "Aida", "Sevil", "Don Karlos", "Trubadur", "Payatsı", "Toska", "Bohema", "Karmen", "Turandot", "Traviata" kimi məşhur operalardan əsas partiyaları ifa etdilər. Xalq artistləri Samir Cəfərov, Fidan Hacıyeva, Əməkdar artist Ramil Qasımov, eləcə də türkiyəli vokalçılar Feryal Türkoğlu, Umut Kosman, serbiyalı Mariya Yeliçin ifaları alqışlarla qarşılandı.

**H.NİZAMİQIZI**

## "Azərbaycan opera ifaçılığı antologiyası"nın təqdimatı

Mədəniyyət Nazirliyinin dəstəyi və Heydər Əliyev Sarayının təşkilatçılığı ilə gerçəkləşən II Azərbaycan Beynəlxalq Vokalçılar Festivalı çərçivəsində maraqlı təqdimatlar da olub.

Heydər Əliyev Sarayında Əməkdar artist İnarə Babayevanın ideya müəllifi və tərtibçisi olduğu ingilis dilində nəşr edilən "Azərbaycan opera ifaçılığı antologiyası" kitabının təqdimat mərasimi keçirilib. Soprano və mezzo-soprano səslər üçün nəzərdə tutulmuş kitabın elmi redaktoru bəstəkar, Xalq artisti, professor Elnarə Dadaşovadır.

Təqdimatda nəşr haqqında məlumat verilib, kitabın əhəmiyyəti vurğulanıb. Sonra Əməkdar artist Əli İbrahim Əhmədov, Taleh Yəhyayev, Rza Xosrovzadə və Ürfan Cəfərovun ifasında Azərbaycan bəstəkarlarının əsərləri alqışlarla qarşılanıb.

**LALƏ**

# "Qarabağnamə" bu dəfə Zəfər ruhu ilə izlənildi



Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı pandemiyanın doğurduğu ilyarımlıq fasilədən sonra pərdələrini teatrsevərlərə açdı. Kollektiv oktyabrın 15-də yeni mövsümdə ənənəvi olaraq "Qarabağnamə" tamaşasını təqdim etdi. Xalq yazıçısı İlyas Əfəndiyevin "Hökmdar və qızı" pyesi əsasında səhnələşdirilən tamaşaya bu dəfə teatrsevərlər Qarabağda tarixi Zəfərdən sonra bir başqa ovqatla gəlmişdilər.

Tamaşanın nümayişindən əvvəl teatrın direktor müavini Hacıbaba Məmmədov qonaqları salamlayaraq 149-cu mövsümdə yenidən tamaşaçıları bir-birindən maraqlı səhnə əsərləri ilə sevindirəcəklərini bildirdi. O, "tamaşaçılar teatr üçün necə darıxmışdısa, teatr da tamaşaçı üçün eyni dərəcədə darıxmışdı" deyərək qonaqlara xoş seyrlər arzuladı.

Səhnəyə dəvət olunan mədəniyyət naziri Anar Kərimov yeni mövsümün başlanması münasibətilə teatrın kollektivini və tamaşaçıları təbrik etdi. Teatrın cəmiyyətin inkişafında müstəsna əhəmiyyət kəsb etdiyini söyləyən nazir dedi: "Teatr çox güclü sənətdir, təsirli bir alətdir. Bu sənət yaşayan bir irs olaraq cəmiyyətimiz üçün çox önəmli incəsənət növüdür. Azərbaycan teatrının çox zəngin tarixi və ənənələri var. Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı da bu proseslərdə bir avanqard rolunu oynayır".

Dövlətin teatrlara göstərdiyi diqqət və qayğıdan danışan nazir bildirdi ki, bu istiqamətdə bir sıra əhəmiyyətli addımlar atılıb, teatrların maddi-texniki bazası gücləndirilib, dövlət proqramları həyata keçirilib.

Nazir qeyd etdi ki, tamaşanın Qarabağda tarixi Zəfərdən sonra nümayişi xüsusi əhəmiyyət kəsb edir. "Bu tamaşa Azərbaycan xalqının tarixi və bu günü ilə bağlıdır. Artıq torpaqlarımız azad olundu, Qarabağımız qayıtdı, şanlı Ordumuz Zəfər çaldı. Çox istərdik ki, Azərbaycanda formalaşan qələbə ruhu, qürur bizim teatrların ərsəyə gətirdiyi tamaşalarda öz əksini tapsın", – deyə Anar Kərimov vurğuladı.

Daha sonra səhnə əsəri nümayiş olundu. Tamaşa XVIII əsrdə Qarabağ xanlığının mərkəzi Şuşada baş vermiş tarixi hadisələrdən və Qarabağ hökmdarı İbrahim xanın ictimai-siyasi, ailə-məişət həyatından bəhs edir. Xanlıqlara bölünmüş Azərbaycana yiyələnmək istəyən Rusiya və İranla siyasi əlaqələri və dostluq münasibətlərini bərqərar etməyə çalışan xan erməni fitnəkarlığının qurbanı olur.

Tamaşanın rejissoru Xalq artisti Mərahim Fərzəlibəyov, quruluşçu rəssamı İsmayıl Məmmədovdur. Rolları Xalq artistləri Kazım Abdullayev, Firəngiz Mütəllimova, Rafiq Əzimov, Hacı İsmayılov, Ramiz Məlik, Əli Nurzadə, Əməkdar artistlər Məsmə Ağaverdiyeva, Kazım Həsənquliyev, Elxan Quliyev, Elşən Cəbrayılov, Rəşad Bəxtiyarov, Elnar Qarayev aktyorlar İlyas Əhmədov, Elnur Qədirov, Ramin Şıxəliyev, Ləman İmanova, Rada Nəsibova, Cavidan Novruz, Firuzə Balayeva və Fəridə Şahbazova ifa edir.

**L.AZƏRİ**

# Nazir Anar Kərimov şəhid mədəniyyət işçilərinin ailə üzvləri ilə görüşüb




Oktyabrın 21-də Beynəlxalq Muğam Mərkəzində nazir Anar Kərimovun şəhid mədəniyyət işçilərinin ailə üzvləri ilə görüşü keçirilib.

Tədbiri Mədəniyyət Nazirliyi Media və kommunikasiya şöbəsinin müdiri Məryəm Qafarzadə açıb. Şöbə müdiri şəhid mədəniyyət işçilərinə həsr olunmuş "Səhnədən səngərə" layihəsi barədə məlumat verib.

Sonra 44 günlük Vətən müharibəsində həlak olmuş mədəniyyət işçilərinin həyat və fəaliyyətindən bəhs edən videoçarxlar nümayiş olunub.

Görüş iştirakçılarını səmimi salamlayan Anar Kərimov şəhid ailələri və qazilərin daim diqqət mərkəzində olduqlarını, nazirlik tərəfindən bu səpkidə mühüm layihələrin həyata keçirildiyini bildirib.

Nazir şəhid valideynlərinə müraciət edərək deyib: "Bu görüş bizim üçün həm də ona görə dəyərlidir ki, siz bizə şəhidlərimizin əmanətisiniz. Ən ali, müqəddəs duyğuları onlara məhz siz aşılamısınız, qəlblərinə mərdlik, sevgi toxumları səpmisiniz".

Tədbir şəhidlərin doğmalarına fəxri diplomların təqdim olunması və Anar Kərimovun ailələrlə masa ətrafında səmimi söhbəti ilə davam edib.

# Almaniya Bundestaqının keçmiş deputatı Milli Kitabxanada

Almaniya Bundestaqının keçmiş deputatı, əslən Cənubi Azərbaycandan olan professor Rahim Şmidt oktyabrın 19-da Azərbaycan Milli Kitabxanasında olub.

Qonağı salamlayan direktor Kərim Tahirov kitabxana haqqında məlumat verib, Azərbaycan Milli Kitabxanasının Almaniya Milli Kitabxanası və Berlindəki Humboldt Universiteti Kitabxanası ilə sıx əməkdaşlıq etdiyini diqqətə çatdırıb. Vurğulayıb ki, bu əməkdaşlığın nəticəsi olaraq Humboldt Universiteti Kitabxanasında Azərbaycana dair daimi guşə yaradılıb. Eyni zamanda Almaniya Milli Kitabxanası ilə də kitab, informasiya sahəsində əməkdaşlıq həyata keçirilir. Azərbaycan Milli Kitabxanasında alman yazıçılarının əsərləri, eləcə də alman dilində qədim kitabların mövcudluğu barədə də qonağa məlumat verilib.

Professor Rahim Şmidt görüşün təşkili üçün Kərim Tahirova təşəkkürünü bildirib. Qeyd edib ki, Azərbaycan Milli Kitabxanası şəhərin ən gözəl binalarından birində yerləşir və zəngin kitab kolleksiyalarına malikdir. O, ötən illərdə Frankfurt Beynəlxalq Kitab Sərgisi çərçivəsində Azərbaycan Mədəniyyət Nazirliyi ilə Milli Kitabxananın birgə təşkilatçılığı və İmadəddin Nəsiminin 650, Molla Pənah Vaqifin 300, habelə almanların Azərbaycana köçürülməsinin 200 illiyinə həsr edilən tədbirlərdə iştirak etdiyini və bu tədbirlərin əhəmiyyətini diqqətə çatdırıb.

Sonra qonaq kitabxananın Heydər Əliyev guşəsi, Beynəlxalq əməkdaşlıq zalı, Nadir kitablar və kitabxana muzeyi şöbəsi, oxu zalı, kitabxana fondu, eləcə də "Açıq kitabxana" ilə tanış olub. R.Şmidt "Açıq kitabxana" layihəsini də yüksək qiymətləndirib və bütün



kitabxanalarda belə layihənin olmasının vacibliyini qeyd edib.

R.Şmidt müəllifi olduğu tibbə dair kitabları Azərbaycan Milli Kitabxanasına hədiyyə edib. K.Tahirov qonağa "Azərbaycan Milli Kitabxanası: fotoalbom" və "Azərbaycan xalçaları" kitablarını bağışlayıb.

# Mədəniyyət Nazirliyi "Səhnədən səngərə: Qazilər" layihəsini təqdim edir

44 günlük Vətən müharibəsinin qəhrəman şəhidlərinin ailələri, yaxınları ilə bərabər, tarixi Qələbənin əldə edilməsində misilsiz fədakarlıq göstərən, xalqımıza sonsuz sevinc və qürur hissləri yaşadan igid qazilərimiz də dövlətimizin diqqət və qayğısı ilə əhatə olunub.

Tarixi Zəfərlə başa çatan Vətən müharibəsində xalqımızın minlərlə qəhrəman övladı ilə bərabər mədəniyyət işçiləri də iştirak ediblər. Onlardan on nəfər Vətən müharibəsinin qazisidir.

Adlarını Azərbaycanın tarixinə həkk etmiş bu igidlərin ölkə ictimaiyyəti tərəfindən daha geniş tanınması məqsədilə Mədəniyyət Nazirliyi "Səhnədən səngərə: Qazilər" layihəsinə başlayıb. Layihə çərçivəsində qazi mədəniyyət işçilərimiz haqda videoçarxlar hazırlanaraq yayımlanacaq. Onların 44 günlük müharibədə göstərdikləri şücaət, ailə üzvləri, doğmaları, döyüş yoldaşları ilə söhbət və müsahibələrdən ibarət videoçarxda qazilərimizin mədəniyyət sahəsində fəaliyyəti də əks etdiriləcək.

"Səhnədən səngərə: Qazilər" layihəsinin birinci buraxılışı Firdovsi Eyvazov haqqındadır. 44 günlük Vətən müharibəsində qəhrəmancasına döyüşən Firdovsi Eyvazov ağır yaralansa da, yenidən savaşın ən qaynar nöqtəsinə qayıdır. Qələbə xəbərini isə möhtəşəm rəqsi ilə qarşılayır. Çünki o həm Vətənini ürəkdən sevən cəsur əsgər, həm də sənətinə bağlı peşəkar rəqqasdır.

# Bakıda "Qarabağın bərpa, yenidənqurma və inkişafı" sərgisi keçirilir

## Mədəniyyət Nazirliyinin stendində yurdumuzun zəngin irsi təqdim edilir

Oktyabrın 20-də Bakı Ekspo Mərkəzində 1-ci Azərbaycan "Qarabağın bərpa, yenidənqurma və inkişafı" beynəlxalq sərgisinin ("Rebuild Karabakh 2021") açılışı keçirilib.

20-22 oktyabr tarixini əhatə edən sərgi "Caspian Event Organisers"in (CEO) təşkilatçılığı, Qarabağ Dirçəliş Fondu, Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi və Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun dəstəyi ilə gerçəkləşir.

Açılış mərasimində bir sıra dövlət qurumlarının nümayəndələri və başqa qonaqlar iştirak ediblər.

Çıxışlarda bildirilib ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qüdrətli Azərbaycan Ordusunun qazandığı tarixi Zəfərdən sonra azad edilmiş torpaqların bərpası prioritet vəzifədir. Qeyd olunub ki, "Rebuild Karabakh" sərgisinin məqsədi müxtəlif ölkələrdən olan şirkətlərin Azərbaycanın işğaldan azad olunan Qarabağ bölgəsinin sürətli bərpasına töhfə verə biləcək unikal təcrübə, innovativ həll variantları və investisiya təkliflərini bir




platformada nümayiş etdirməkdir. Sərgi həmçinin özəl şirkətlərin və dövlət qurumlarının nümayəndələri arasında ünsiyyət platforması yaratmağa xidmət edir.

Sərgidə Mədəniyyət Nazirliyi ayrıca stendlə təmsil olunur. Stenddə Qarabağ xalçaları, Zəfər və Qarabağ mövzulu kitablar, keramika məhsulları və suvenirlər, bölgənin tarix-mədəniyyət abidələrinin fotoları sərgilənir. Monitorda Ağdamda yaradılacaq İşğal və Zəfər muzeyləri kompleksi, Cəbrayıl və Füzulidə tikiləcək Memorial komplekslər barədə tanıtım filmləri, habelə nazirliyin dəstəyi ilə Qarabağ haqqında hazırlanmış videoçarxlar, habelə sərgi zamanı xalçatoxuma prosesi əyani olaraq iştirakçılara nümayiş olunur.

Sərgi çərçivəsində Mədəniyyət Nazirliyinin "Qarabağa kitabla gedək" layihəsinin təqdimatı da keçiriləcək. Oktyabrın 22-də saat 12:30-da nazirliyin dəstəyi ilə konsert proqramı təşkil olunacaq.

"Rebuild Karabakh" sərgisi çərçivəsində işğaldan azad edilmiş ərazilərin davamlı inkişafı ilə bağlı konfrans, ərazilərin bərpası haqqında beynəlxalq və yerli ekspertlərin təcrübə mübadiləsi, mədəni abidələrin bərpası, Qarabağ bölgəsinin turizm potensialı, regionun enerji potensialı, şəhid və qazi ailələri üçün mikro biznes proqramları üzrə müzakirələr, startaplar müsabiqəsi, iştirakçı şirkətlər tərəfindən Qarabağın bərpası ilə əlaqədar layihə təqdimatları və digər tədbirlər nəzərdə tutulur.

Sərginin açılışında muğam üçlüyünün ifasında təqdim olunan musiqi nömrələri alqışlarla qarşılanıb.

# Vətən müharibəsi iştirakçısı işlə təmin olunub

Vətən müharibəsinin iştirakçısı Əzizov Bilal Ağabəy oğlu Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti Şabran regional idarəsinin Siyəzən rayonu üzrə baş mütəxəssis-abidə mühafizəçisi vəzifəsinə işə qəbul edilib. Dövlət Xidmətinin rəisi Azad Cəfərli Bilal Əzizova fəaliyyətində uğurlar arzulayıb.

Bilal Əzizov İkinci Qarabağ müharibəsində Füzuli, Cəbrayıl, Xocavənd və Zəngilan rayonu istiqamətində gedən döyüşlərdə fəal iştirak edib. Azərbaycan Prezidentinin müvafiq sərəncamı ilə "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilib.

Qeyd edək ki, ilin əvvəlindən 25 nəfər müharibə iştirakçısı və ya onların ailə üzvü olan şəxslər Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətində işlə təmin olunublar.

# Quba Soyqırımı Memorial Kompleksinin əməkdaşları Gəncədə olublar

Quba Soyqırımı Memorial Kompleksinin əməkdaşları 17-18 oktyabr tarixlərində "Nizami ili" çərçivəsində dahi şairin yurduna səfər ediblər. Təcrübə mübadiləsi məqsədi daşıyan səfərdə kompleksin rəhbərliyi və Elmi araşdırmalar ekspozisiya və fond şöbəsinin 14 əməkdaşı iştirak edib.

Qonaqlar ilk olaraq 2020-ci ilin oktyabr ayında Gəncə şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən raket atəşinə tutularaq dağıdılmış ərazisinə baş çəkib və mənfur düşmənin törətdiyi müharibə cinayəti nəticəsində həlak olan günahsız insanların əziz xatirəsinə ehtiramlarını bildiriblər.

Səfər müddətində Quba Soyqırımı Memorial Kompleksi və Gəncə Dövlət Tarix-Mədəniyyət Qoruğu əməkdaşlarının iştirakı ilə görüş və seminarlar təşkil olunub, təcrübə mübadiləsi aparılıb.

Qonaqlar dahi Nizami Gəncəvinin məqbərəsini, şəhərdəki İstiqlal Muzeyini və Şah Abbas məscidini də ziyarət ediblər.

# "Azərbaycanın cənub bölgəsinin mətbəx mədəniyyəti"

Lənkəran Regional Mədəniyyət İdarəsi, Lənkəran Şəhər İcra Hakimiyyəti, Azərbaycan Milli Kulinariya Mərkəzi və Lənkəran Turizm-İnformasiya Mərkəzinin birgə təşkilatçılığı ilə Lənkəran şəhərində "Azərbaycanın cənub bölgəsinin mətbəx mədəniyyəti" festivalı və respublika elmi-praktik konfransı keçirilib.




Festival iştirakçıları ilk olaraq "Lənkəran mətbəxi uşaqların gözü ilə" adlı rəsm sərgisi ilə tanış olublar. Festivalın açılış mərasimində Mədəniyyət Nazirliyinin Strateji inkişaf və layihələrin idarə olunması şöbəsinin əməkdaşı Nicat Şərifov, Azərbaycan Milli Kulinariya Mərkəzinin baş direktoru Tahir Əmiraslanov, Lənkəran Şəhər İcra Hakimiyyəti başçısının müavini Mikayıl Cəfərzadə, Lənkəran Regional Mədəniyyət İdarəsinin rəisi Şahin Şahbazov və digər qonaqlar çıxış ediblər.

Sonra elmi-praktik konfrans keçirilib, məruzələr dinlənilib.

# "Tarixi yerlər və abidələr" III beynəlxalq Ağsu simpoziumu

Ağsuda tanınmış tarixçi alim, arxeoloq, professor Kamil İbrahimovun (1962-2021) xatirəsinə həsr olunan "Tarixi yerlər və abidələr" adlı III beynəlxalq simpozium (15-17 oktyabr) keçirilib.

Tədbir Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin "Orta əsr Ağsu şəhəri" Dövlət Tarix-Mədəniyyət Qoruğu, "Miras" Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi, Qafqaz İrsi Tədqiqat İnstitutu (Gürcüstan), İtaliya YOCOCU Assosiasiyası və Ağsu Tədris Mərkəzinin birgə təşkilatçılığı ilə gerçəkləşib.

Beynəlxalq simpoziumun açılışında "Orta əsr Ağsu şəhəri" Dövlət Tarix-Mədəniyyət Qoruğunun direktoru Fariz Xəlilli, Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin Qoruqlarla iş sektorunun müdiri Mahir Qəhrəmanov çıxış ediblər.




Ağsu Rayon İcra Hakimiyyəti başçısının müavini Sevil Mirzəliyeva, Ağsu Tədris Mərkəzinin direktoru Güvənc Mirzəxanov, Ağsu arxeoloji ekspedisiyasının rəisi, professor Qafar Cəbiyev və Azərbaycan Texniki Universitetinin professoru Şikar Qasımovun çıxışları dinlənilib.

Tədbirdə "Miras" Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin "Tarixi İpək Yolunun dirçəldilməsi" layihəsi haqqında məlumat verilib. Bildirilib ki, qədim və orta əsrlər dövründə Şamaxı və Ağsu arasındakı Ortabulaq yolu məhz həmin tarixi İpək Yoludur. Bu yol arxeoloji, etnoqrafik və aqroturizm baxımından mühüm əhəmiyyət kəsb edir. Ətrafında Qazan arxı, Pir Bəxtiyar türbəsi, Cavanşir yaşayış yeri, Şeyx Dursun türbəsi, Kələxana türbələri, Nərgizava nekropolu kimi abidələrin yerləşdiyi bu tarixi yol Ağsu dolaylarından 15 kilometr qısa və təhlükəsizdir.

Simpozium çərçivəsində "Günəşə doğru köç: tərəkəmə qadın" filmi nümayiş etdirilib.

30-dan çox məruzənin dinlənildiyi simpoziumun sonunda iştirakçılara sertifikatlar təqdim olunub.

# "Xarıbülbül" tamaşası

Oktyabrın 20-də Şabran rayon Xalq teatrı "Xarıbülbül" tamaşasını təqdim edib. Tamaşa Vətən müharibəsində Zəfərimizin ildönümü münasibətilə hazırlanıb. Tamaşanı izləyənlər arasında Xaçmaz Regional Mədəniyyət İdarəsinin rəhbərliyi, şəhid ailələrinin üzvləri və qazilər də olub.

Azərbaycan Yazıçılar Birliyinin üzvü Aybəniz Əliyarın eyniadlı əsəri əsasında səhnələşdirilən tamaşanın rejissoru Cabir Əmrahovdur. Səhnə əsərində müharibə vaxtı ön və arxa



cəbhədə baş verənlər, Azərbaycan xalqının eyni amal uğrunda birləşməsi öz ifadəsini tapıb.

Səhnə əsəri 8 Noyabr - Zəfər Günü ərəfəsində şimal bölgəsinin müxtəlif mədəniyyət ocaqlarında tamaşaçılara təqdim olunacaq.

# Yeni mövsüm "Zınqırovlu pişik"lə açılıb

Qax Dövlət Kukla Teatrı 49-cu mövsümünü Əhməd Orucun "Zınqırovlu pişik" əsəri əsasında hazırlanmış eyniadlı tamaşa ilə açıb. Tamaşanı şəhid və qazi uşaqları da izləyiblər.

Rejissor Elşad Rəhimzadənin quruluş verdiyi tamaşada rolları Araz Mehrablı, Afət Yaqubova, Nuru Mustafayev, Aynurə Abbasova və başqaları oynayıblar. Səhnə əsərinin rəssamı Mayis Abdullayevdir.

Hazırda teatrda 2021-ci ilin repertuar planına daxil edilən iki əsər – fransız yazıçısı Şarl Perronun "Yatmış gözəl" və rus yazıçısı Pavel Morozovun "Yırtıcı dovşan" əsərləri əsasında səhnələşdirilən tamaşalar üzərində məşqlər davam etdirilir. Birinci tamaşa oktyabrın sonunda uşaqlara təqdim olunacaq.

# Vətən qəhrəmanları unudulmur

Kürdəmir Regional Mədəniyyət İdarəsi Xocavənd rayon Mədəniyyət evinin əməkdaşları Vətən müharibəsi şəhidi Tural Abdullayevin ailəsini ziyarət ediblər.

Lənkəran Regional Mədəniyyət İdarəsi Lənkəran Tarix-Diyarşünaslıq Muzeyində Vətən müharibəsi şəhidi Murad Hüseynzadənin ömür yolunu əks etdirən guşə açılıb.



Ağstafa Regional Mədəniyyət İdarəsi Qazax Dövlət Rəsm Qalereyasında Vətən müharibəsinin ildönümü ilə bağlı rəsm sərgisi təşkil edilib. Qazax rayon Mədəniyyət Mərkəzində "Vətənimizin qəhrəman igidləri" adlı tədbir keçirilib. Qazax şəhər 1 nömrəli Uşaq musiqi məktəbi "Qədim yaşayış məskənimiz Füzuli şəhəri azaddır" adlı tədbir keçirib. Tovuz şəhər Aşıq Əsəd Rzayev adına Uşaq musiqi məktəbi "Füzuli, sən azadsan!" adlı tədbir təşkil edib. Tovuz rayon Qovlar şəhər Uşaq musiqi məktəbi "Füzuliyə qayıtdıq" adlı tədbir keçirib.

Şəmkir Regional Mədəniyyət İdarəsi Daşkəsən rayon Heydər Əliyev Mərkəzində "Zəfər tariximizin bir səhifəsi" adlı tədbir keçirilib.

İsmayıllı Regional Mədəniyyət İdarəsi Qəbələ rayon Mədəniyyət Mərkəzində Vətən müharibəsinin şəhid baş leytenantı Aqşin Ənvərlinin xatirəsinə həsr olunmuş "Ömrün şəhidlik zirvəsi" adlı tədbir keçirilib.

Xaçmaz Regional Mədəniyyət İdarəsi, Quba rayon MKS-nin Alpan kənd kitabxanasında Füzuli rayonunun işğaldan azad olunmasının ildönümü münasibətilə tədbir keçirilib. MKS-nin Qorxmazoba kənd kitabxana filialında "Şəhidlər ölməz, Vətən bölünməz!" mövzusunda tədbir təşkil edilib. MKS-nin Alıc kənd kitabxanasında Vətən müharibəsi ilə əlaqədar "Dəmir yumruq yerindədir" mövzusunda tədbir keçirilib. MKS-nin Əlibəyqışlaq kənd kitabxanasında Zəngilan rayonunun işğaldan azad olunmasının ildönümü ilə əlaqədar "Biz Vətənimizə qayıtdıq" mövzusunda tədbir təşkil olunub.

Sabirabad Regional Mədəniyyət İdarəsinin təşəbbüsü ilə Saatlı rayonunda beşmərtəbəli binanın divarına Zəfər simvolu olan Xarıbülbül rəsmi çəkilib. Bu münasibətlə keçirilən tədbirdə idarə rəisi Fərid Qurbanzadə, Saatlı Rayon İcra Hakimiyyətinin məsul işçisi Mehriban Ağayeva, Saatlı Rayon Gənclər və İdman İdarəsinin rəisi Elçin Qiyasov çıxış ediblər.



Şəki Regional Mədəniyyət İdarəsi M.F.Axundzadə adına Şəki şəhər Mədəniyyət Mərkəzində "Şanlı Qələbəni qanları ilə qazanan qəhrəmanlar" adlı tədbir keçirilib. Tədbirdə Şəki şəhər 2 nömrəli Uşaq musiqi məktəbinin "Buta" ansamblının ifasında musiqi nömrələri təqdim olunub, "ASAN Həyat" kompleksi könüllülərinin və mərkəzin Xalq teatrı üzvlərinin hazırladığı səhnəciklər nümayiş etdirilib. Şəki şəhər 3 nömrəli Uşaq musiqi məktəbində Vətən müharibəsi qaziləri ilə görüş keçirilib. Oğuz rayon MKS-nin 3 saylı Muxas kənd kitabxana filialında "Qarabağ Azərbaycandır!" adlı informasiya saatı təşkil olunub. Oğuz rayon Heydər Əliyev Mərkəzində "Zəfər salnaməsi" adlı tədbir keçirilib. Zaqatala rayon Heydər Əliyev Mərkəzində İkinci Qarabağ müharibəsi qaziləri Əlibəy Məmmədov və Sübhan Durmuşovla görüş olub. Qax rayon Güllük kənd Mədəniyyət evi, kənd kitabxanası və tam orta məktəbin birgə təşkilatçılığı ilə "Vətən mənə oğul desə, nə dərdim..." devizi altında şeir müsabiqəsi keçirilib. Həlimə Hüseynli I, Fərhad Davudov II, Səyyarə Vəlizadə isə III yerlərə layiq görülüblər.

Ağdaş Regional Mədəniyyət İdarəsi Göyçay rayon Heydər Əliyev Mərkəzində "Vətən müharibəsi zamanı mətbuatımız" adlı dəyirmi masa təşkil edilib. Mərkəzdə həmçinin Vətən müharibəsi qazisi Ayaz Babayevlə görüş keçirilib.

Ağcabədi Regional Mədəniyyət İdarəsi Ağdam rayon Qaradağlı kənd Mədəniyyət evində Vətən müharibəsinə həsr olunmuş sərgi təşkil edilib. Ağdam rayon MKS-nin Mərkəzi Kitabxanasında Füzuli rayonunun işğaldan azad olunmasının birinci ildönümü ilə əlaqədar tədbir keçirilib.

Masallı Regional Mədəniyyət İdarəsinin rəisi Bəxtiyar Qılıncov, idarə əməkdaşları, tabe müəssisələrin rəhbərləri və Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Masallı rayon komitəsinin nümayəndələri Vətən müharibəsi şəhidləri Elvin Əzizov, Rəfail Hüseynov və Gülşad Xəlilovun ailəsinə baş çəkiblər. Masallı Tarix-Diyarşünaslıq Muzeyində "Tarix yazan igidlərimiz" adlı dəyirmi masa təşkil edilib. Yardımlı rayon Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə Vərgədüz kənd tam orta məktəbində Vətən Müharibəsi Qəhrəmanı Fəqan Zalova həsr olunmuş tədbir keçirilib.




Sumqayıt Regional Mədəniyyət İdarəsi Xızı rayon nümayəndəliyinin əməkdaşları Vətən müharibəsi qazisi Kamran Baxışzadəni ziyarət edib. Qubadlı Rayon Tarix-Diyarşünaslıq Muzeyində Vətən müharibəsi şəhidlərinin xatirəsinə həsr olunan sərgi açılıb. Şuşa şəhər Xəlfəli kənd Uşaq musiqi məktəbində Vətən müharibəsi şəhidlərinin xatirəsinə həsr olunan tədbir keçirilib. Məktəbin şagird və müəllimlərinin ifasında "Xudayar təsnifi" və "Bayatı-Şiraz" muğamı səsləndirilib.

Biləsuvar Regional Mədəniyyət İdarəsi Salyan rayon MKS-nin Babazanlı qəsəbə kitabxana filialı Füzulinin işğaldan azad olunmasının ildönümü münasibətilə "Yaşasın Azərbaycanın müzəffər Ordusu!" adlı tədbir keçirib.

Bərdə Regional Mədəniyyət İdarəsi Mingəçevir şəhər MKS-nin A.S.Puşkin adına 1 nömrəli və N.Gəncəvi adına 9 nömrəli kitabxana filiallarının əməkdaşları Vətən müharibəsi şəhidi Nahid İbrahimzadənin ailəsini ziyarət ediblər.

# Müxtəlif səpkili tədbirlər

Ağcabədi Regional Mədəniyyət İdarəsi Ağdam rayon Heydər Əliyev Mərkəzinə Ağdam rayon Üçoğlan kənd tam orta məktəbin müəllim və şagirdlərinin ekskursiyası təşkil edilib.

Xaçmaz Regional Mədəniyyət İdarəsi Quba rayon MKS-nin Talabıqışlaq və İqriq kənd kitabxanaları tərəfindən görkəmli yazıçı-dramaturq, ictimai xadim Mirzə İbrahimovun (1911-1993) anadan olmasının 110 illiyi münasibətilə tədbirlər keçirilib. MKS-nin Paşaoba kənd kitabxanası tərəfindən "Yeni kitablar" adlı mütaliə günü təşkil edilib.



Sabirabad Regional Mədəniyyət İdarəsinin təşəbbüsü ilə Sabirabad rayon Mədəniyyət Mərkəzində Bakı Uşaq və Gənclər Teatrının narkomaniya ilə mübarizəyə həsr olunmuş "Xaşxaşın gözyaşı" tamaşası nümayiş olunub. Tamaşadan öncə idarənin rəisi Fərid Qurbanzadə çıxış edərək narkomaniyanın fəsadları haqqında söz açıb. Sonra tamaşa təqdim olunub və maraqla qarşılanıb. Ağdaş Regional Mədəniyyət İdarəsinin təşkilatçılığı ilə keçirilən "Zəfər" musiqi festivalının növbəti seçim turu Sabirabad Regional Mədəniyyət İdarəsi Sabirabad rayon Mədəniyyət Mərkəzində təşkil olunub. İdarənin rəisi F.Qurbanzadə Prezident İlham Əliyevin sərəncamı ilə təsis edilmiş 8 Noyabr – Zəfər Gününün çoxəsrlik Azərbaycan tarixinə qızıl hərflərlə yazıldığını bildirib. Sabirabad Regional Mədəniyyət İdarəsinin tabeliyində fəaliyyət göstərən Şirvan şəhər, Sabirabad, Saatlı və Hacıqabul rayonlarının uşaq musiqi məktəblərinin iştirakı ilə keçirilən seçim turunda müvəffəqiyyət qazanan 9 şagird finalda iştirak etmək şansı əldə edib.

Masallı Regional Mədəniyyət İdarəsi Masallı rayon Mərkəzi Kitabxanasında Xalq şairi, dramaturq, ictimai xadim Süleyman Rüstəmin (1906-1989) 115 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.

# "Milli müstəqillik ən böyük nemətdir"

18 Oktyabr – Müstəqilliyin Bərpası Günü münasibətilə bölgələrdəki mədəniyyət müəssisələrində rəngarəng tədbirlər keçirilib.



Masallı Regional Mədəniyyət İdarəsi Masallı rayon Mədəniyyət Mərkəzi, mərkəzin nəzdində fəaliyyət göstərən Xalq teatrı və Masallı Dövlət Regional Kollecinin birgə təşkilatçılığı ilə konsert proqramı keçirilib. Mərkəzin solistlərinin ifasında vətənsevərlik mövzusunda musiqili kompozisiya təqdim olunub. Kollecin müəllim və tələbələri isə şeirlər söyləyiblər. Cəlilabad rayon Mərkəzi Kitabxanasında "Əbədi müstəqil Azərbaycan" adlı musiqili proqram təqdim edilib. Konsertdə Cəlilabad şəhər 2 saylı tam orta məktəbin şagirdləri ulu öndər Heydər Əliyevə həsr olunmuş şeirlər səsləndirib, musiqili-bədii kompozisiya ilə çıxış ediblər. Yardımlı rayon Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə keçirilən "Milli müstəqillik ən böyük nemətdir" adlı tədbirdə "Heydər Əliyev" filmi nümayiş olunub.

Ağdaş Regional Mədəniyyət İdarəsi Ağdaş rayon Mərkəzi Kitabxanasının əməkdaşları əlamətdar günlə bağlı Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin, görkəmli oftalmoloq alim Zərifə Əliyevanın, eləcə də Birinci və İkinci Qarabağ müharibəsi şəhidlərinin məzarlarını ziyarət ediblər.

Sabirabad Regional Mədəniyyət İdarəsi Sabirabad rayon Mədəniyyət Mərkəzində "Müstəqilliyimiz əbədidir" adlı rəsm sərgisi təşkil olunub. Regional idarənin rəisi Fərid Qurbanzadə, idarə aparatının əməkdaşları Mədəniyyət Mərkəzinin nəzdində fəaliyyət göstərən rəsm dərnəyi üzvlərinin əl işləri ilə tanış olublar.

Ağstafa Regional Mədəniyyət İdarəsi Ağstafa rayon Heydər Əliyev Mərkəzində "Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir" mövzusunda tədbir keçirilib. Qazax rayon MKS-nin E.Hüseynov adına Mərkəzi Kitabxanası "Müstəqilliyimiz əbədi və dönməzdir" adlı ədəbi-bədii gecə keçirib, "Müstəqil dövlətçiliyimizin parlaq səhifəsi", "Tariximiz, şərəfimiz" adlı sərgilər təşkil edib.



Kürdəmir Regional Mədəniyyət İdarəsi İmişli rayon Mədəniyyət Mərkəzində keçirilən tədbirdə vətənpərvərlik mövzusunda şeirlər səsləndirilib. Rayon Mədəniyyət Mərkəzi, uşaq musiqi və incəsənət məktəblərinin hazırladığı müxtəlif musiqi nömrələri dinlənilib. Kürdəmir rayon Heydər Əliyev Mərkəzi, rayon Mərkəzi Kitabxanası, Mədəniyyət Mərkəzi və Beyləqan rayon Heydər Əliyev Mərkəzi də əlamətdar günlə bağlı müxtəlif tədbirlər təşkil ediblər.

Xaçmaz Regional Mədəniyyət İdarəsində əlamətdar günlə bağlı keçirilən videokonfransda Xaçmaz Rayon İcra Hakimiyyəti başçısının müavini Günel Nurəddinova, regional idarənin rəisi Vüsal Hüseynov və başqalarının çıxışları dinlənilib. Heydər Əliyev adına Xaçmaz rayon Mədəniyyət Mərkəzində keçirilən "Müstəqilliyimiz əbədidir" adlı tədbirdə Xaçmaz Regional Mədəniyyət İdarəsinin rəisi Vüsal Hüseynov çıxış edərək əlamətdar günün önəmini bildirib. Daha sonra videoçarx nümayiş olunub. Quba rayon MKS-nin II Nügədi kənd və Zərdabi qəsəbə kitabxanaları tərəfindən əlamətdar günlə bağlı tədbirlər keçirilib.

İsmayıllı Regional Mədəniyyət İdarəsi İsmayıllı Dövlət Rəsm Qalereyasında əməkdaşların və dərnək üzvlərinin əl işlərindən ibarət rəsm sərgisi təşkil edilib.

Biləsuvar Regional Mədəniyyət İdarəsi Salyan rayon Mədəniyyət Mərkəzində konsert proqramı keçirilib. Solistlər Natiq Məmmədov, Razi Məhərrəmli, Murad Bəşirov, Rəşad Aydınoğlu və başqaları doğma yurdumuzu tərənnüm edən mahnılar ifa ediblər.

Gəncə Regional Mədəniyyət İdarəsi F.Əmirov adına 1 saylı Uşaq musiqi məktəbində "Müstəqilliyin Bərpası Günü" mövzusunda dərs keçirilib. Goranboy Dövlət Rəsm Qalereyası "18 Oktyabr Müstəqilliyin Bərpası Günüdür" adlı rəsm sərgisi təşkil edib. Regional idarənin tabeliyində fəaliyyət göstərən Gəncə, Naftalan şəhərləri, Samux, Goranboy, Kəlbəcər və Xocalı rayonlarının bir sıra mədəniyyət müəssisələri də əlamətdar gün münasibətilə müxtəlif tədbirlər keçiriblər.

Ağcabədi Regional Mədəniyyət İdarəsi Ağdam rayon Mədəniyyət Mərkəzinin tabeliyində fəaliyyət göstərən Qaradağlı kənd Mədəniyyət evində Müstəqilliyin Bərpası Günü ilə bağlı tədbir keçirilib.

Hazırladı: N.MƏMMƏDLİ

# "Kəramət göstər, ya şeyx"

Çoxdan belə mənzərə ilə rastlaşmamışdım. İlyarımdan çox sürən pandemiya fasiləsindən sonra teatr binası önündə belə qələbəlik görmək gözlənilməz idi. Xüsusən teatrın kassası qarşısında "Necə yəni bilet yoxdu", "Onlayn satış edirsiz, çox əcəb, bəs belə canlı gəlib kassada dayananları düşünmürsüz" kimi suallar verən nigaran tamaşaçıları görmək lap xoşuma gəldi... Əlqərəz, onları da, əli hər şeydən üzülüb iri afişa önündə foto çəkdirənləri də arxada qoyub binaya daxil oluram. Bu dəm yadıma mərhum teatr xadimlərindən birinin sözləri düşür: "Aktyorun adını afişada görüb gələn tamaşaçı olduqca teatr da yaşayacaq, aktyor da...".

Az öncə gördüyüm mənzərədən sonra onun nə qədər haqlı olduğunu bir daha anladım. Bu axşam (16 oktyabr) onun – tamaşaçını teatra gətirən aktyorun, Xalq artisti Nurəddin Mehdixanlının axşamı idi. Ömrünü həsr etdiyi, ən gözəl illərini keçirdiyi Akademik Milli Dram Teatrının səhnəsində 65 yaşlı sənətkarın yubiley tamaşası əsl sənət bayramı əhvalına köklənmişdi.

Öncə səhnəyə Mədəniyyət Nazirliyi İncəsənət və qeyri-maddi mədəni irs şöbəsinin müdiri Fərəh Acalova çıxdı. Mədəniyyət naziri Anar Kərimovun təbrik məktubu oxundu. Məktubda aktyorun milli teatr sənətimizin inkişafında xidmətləri, bir-birindən fərqli və maraqlı rollar oynaması, sənətkar kimi xalqının sevgi və rəğbətini qazanması, Vətəninə bağlı teatr xadimi kimi dövlətin də diqqət mərkəzində olması, fəxri adlar və mükafatlarla əməyinin qiymətləndirilməsi qeyd olunurdu.

Ardınca Akademik Milli Dram Teatrının direktor müavini Hacıbaba Məmmədov səhnəyə çıxaraq kollektivin adından teatrın bədii rəhbəri və direktoru Azər Paşa Nemətovun təbrik məktubunu oxudu. Nurəddin Mehdixanlının sənət yolundan, akademik teatrın səhnəsində yaratdığı yaddaqalan obrazlardan bəhs edildi, aktyor məziyyətləri sadalandı.

Alqış sədaları altında pərdələr açıldı və ölməz Mirzə Cəlilin daim dipdiri "Ölülər"i yenidən səhnədə "zühur" etdi. Hər zaman müasir və təəssüf ki, hər daim ağrı ilə gülüb, dərin sarsıntı ilə müşayiət etdiyimiz cəhalət, xurafat və axmaqlığın ən dibini göstərən əsərin cari repertuardakı səhnə həlli ədibin 150 illik yubileyi münasibətilə ərsəyə gəlib. Xalq artisti Azər Paşa Nemətovun quruluş verdiyi tamaşanın Şeyx Nəsrullahı Nurəddin Mehdixanlı idi.

Səhnə əsərində digər rolları Xalq artistləri Laləzar Mustafayeva, Rafiq Əzimov, Hacı İsmayılov, Sabir Məmmədov, Əli Nur, Əməkdar artistlər Anar Heybətov, Aslan Şirin, Elşən Rüstəmov, Elxan Quliyev, Məzahir Cəlilov, Kazım Həsənquliyev, Mirzə Ağabəyli, aktyorlar Elçin Əfəndi, Ramin Şıxəliyev, Vüsal Mustafayev, Canəli Canəliyev, Elnur Qədirov, Rüstəm Rüstəmov, Mətləb Abdullayev, Xədicə Novruzlu, Ləman İmanova, Rada Nəsibova oynayırdılar.

Əsərdən irəli gələn mənəvi əsarət, quruluş həllinin çoxfunksiyalı təsir imkanları aktyorların ifasında özünəməxsus çalarlarla açılırdı. Yaradıcı heyət Cəlil Məmmədquluzadə düşüncələrini, XX əsrin əvvəllərinə aid edilən, əslində, zamanı olmayan mövhumat və cahilliyin dramatik lövhələrini dolğun təcəssüm etdirə bildi.



Bu mənada iki saata yaxın səhnədə əsl oyun nümayişi edən Şeyx Nəsrullah – Nurəddin Mehdixanlı aktyor kəramətini necə lazımdısa göstərdi.

Elə tamaşaçısına təşəkkür nitqini də oyunu kimi təbii, səmimi və peşəkar etdi. Dönə-dönə onu sürəkli alqışlayan auditoriya və tərəf-müqabilləri önündə təzim etdi və hər kəsə minnətdarlığını bildirdi. 22 yaşında ilk dəfə çıxdığı akademik teatrın səhnəsində olmağın sevinc və həyəcanını 65 yaşında da eyni şövq və enerji ilə tamaşaçısına ötürdü...

**HƏMİDƏ**

# Səhnə arxasında yubiley söhbəti

## Nurəddin Mehdixanlı: "Tamaşaçıya baxan kimi zalı hiss edir, onları istədiyim əhvala gətirə bilirəm"



Qayım-qədim aktyor tamaşadan bir saat öncə teatra gəlməli, qrim otağında hazırlaşmalıdır. Mən də o vaxtı – saat 18:00-ı seçdim. Sağ olsun, məni yanıltmadı – sövdələşdiyimiz zamanda orada idi. Hərçənd həmin gün heç məşqi də yox idi. Sadəcə, məhz ad günündə də teatrda olmalı, özünü səhnə ovqatına kökləməliydi. Çünki ilk mizandan monotamaşasını oynayacaqdı. Məncə, bu müsahibə onunla sadəcə söhbət yox, məhz onun monotamaşası, lap istəsəniz, performansı sayıla bilər. Təəssüf, əslində, nə yaxşı ki, o tamaşanın tək tamaşaçısı mən idim...

*– Xalq artisti, "Şöhrət" ordenli sənətkar, Akademik Milli Dram Teatrının aparıcı aktyoru Nurəddin Mehdixanlı da əlahəzrət 65-lə görüşdü. Maraqlıdır, ilk təqaüdünüzü necə xərcləyəcəksiniz? (Qaşlarını çatdığından və bir az emosional ovqatda olduğundan söhbətə bir az yumor qatmaq istədim)…*

– Yaxşı yadıma saldınız, məndən nə qədər yaşlı aktyorumuz varsa, hamısını bir yerə, bir masa ətrafına toplayacam. Həm dərdləşəcəyik, həm də "Salam, qocalıq" deyəcəm (gülür).

*– Ahıl yaşı 70-dən sonradır. Siz də yaman tələsdiniz...*

– Yox, bizdə sərhəd 65-dən başlayır. Amma 65 yaşa qədər bir həkim, bir müəllim, bir aktyor ömür sürür və özünün kamillik məqamına yetişir. Teatr, sənət, ədəbiyyat, söz adamının artıq öyrədə biləcəyi məqamdır. Bu məqamdakı insanlara öyrətmək imkanı yaratmırıqsa, bizdən sonra gələnlər nəyi öyrənəcəklər?! Biz yaddaşıq. Müxtəlif sahələrdəki yaşlı insanlar – vəzifə və statusundan asılı olmayaraq, bu millətin yaddaşıdır, tarix yaşayıblar. Bizlər bunlardan imtina edəndə yaddaşımızdan, xatirələrimizdən, dünənimizdən imtina eləmiş oluruq. Bu, məni çox kədərləndirir. Mənə elə gəlir ki, elm və sənət adamları yaşa dolduqca daha çox dəyər qazanırlar. Biz yaşımıza, yaddaşımıza, xatirələrimizə hörmət etməsək, sabahımız olmayacaq.

*– Müəyyən yaşdan sonra imtina etmək daha ağırdır, yoxsa imtina olunmaq?*

– Şəxsən mənim üçün 65 yaş yaş deyil. Sadəcə olaraq, keçdiyim yolun uzunluğudur. Məndən soruşsanız ki, ömür dediyin nədir, bax, onda duruxaram. Ömür haqqında fikrim son aylar tamamən dəyişdi. Bilirsiniz ki, İkinci Qarabağ müharibəsində mən 50 gün cəbhədə oldum. Orada anladım ki, əslində, həyat o qədər qiymətlidir ki, onu boş yerə sərf eləmək olmaz. Hərçənd Birinci Qarabağ müharibəsində də olmuşdum. Amma bu 50 gün mənim bütün həyatımı, ona baxışımı dəyişdi. İnanın, bu 50 günü ömrümün ən qiymətli, səmərəli vaxtı hesab edirəm.

*– Niyə?*

– Orada adam insan olur. Əslində, insan nədir orada anlayırsan. Bu, xoşa gəlmək üçün deyilən sözlər deyil. Ömrün və həyatın, insanlığın nə olduğunu orada görürsən.

*– Bunu 18 yaşlı gənc əsgər də deyir.*

– Hə, amma mənim 65 yaşım var, həyatı görmüşdüm, yaşamışdım. Gözümün qabağında ölüm haqqında düşünməyən, onun nə olduğunu ağlından belə keçirməyən və ölümə, zəfərə uçan 18-20 yaşlı oğullar var idi. "İlahi, onlara qol-qanad verən nə idi, görəsən", deyə tez-tez düşünürəm. Təbii k, bu verilmiş mənəvi tərbiyədən, aşılanmış ruh yüksəkliyindən qaynaqlanırdı. Onu da nə verirdi? Təbii ki, ədəbiyyat, sənət, söz, mədəniyyət, teatr, kino. Yadımdadır, illər əvvəl günorta tamaşalarına bəzən 100-150 nəfər əsgər gətirilirdi. Bəzi həmkarlarımız da "yenə təşkil edə bilməyiblər, zalı əsgərlərlə doldurublar" deyirdilər. Amma mən həmişə "Onlar müstəqil Azərbaycanın əsgərləridir" deyirdim və xüsusilə həmin tamaşaçılar üçün bütün enerjimlə oynayırdım. Elə bil onların, o ağız büzənlərin də əvəzində əsgərə, zabitə tamaşa göstərirdim. Onda da, indi də bir daha anladım ki, aktyorluq sıradan peşə deyil. Bu sənət həm ləyaqətli yaşamağa, həm də şərəflə ölməyə səsləyir.

*– Baxıram, siz hələ də o ovqatdasınız. Hiss olunur, 44 günlük savaş sizin də həyata baxışınıza "əl gəzdirib"...*

– Bəli, çox şeylərə münasibətim tamamilə dəyişdi. Dünən məni acıqlandıran, aqressiv edən hər şeyə indi çox rahat, sakit yanaşıram. Çünki onlar mənə çox mənasız, bəsit görünür. Onların varlığı da, yoxluğu da mənim üçün heç nə ifadə etmir. Orada 19-20 yaşlı gənclər necə gülə-gülə ölümün üstünə gedirlər və bunu düşünmədən, sadəcə, Vətən üçün edirlərsə, deməli, daha böyük nəsnələr üçün – o əsgər üçün, zabit üçün bütün xırda-para qafalı adamları heçə saymaq olar. Sən bu boyda böyüklüyü, müqəddəsliyi görəndən sonra hər şey mənasız gəlir. Mənim üçün əli öpüləsi insan vətənimin əsgəridir, zabitidir. Onlar sübut etdilər ki, bu vətənin, bu bayrağın sahibi bizik.

*– Sizi bir müddət əvvəl Fəxri xiyabanda, mərhum aktyorlarımızdan birinin anım tədbirində gördüm. Gərgin nota köklənmişdiniz. O zaman hiss etdim ki, siz unudulmaq aqibətindən sarsıla bilərsiniz. Yanılıram?*

– Bəli, yanılırsınız. Əksinə, bu gün elə unudulmaq, elə yaddan çıxmaq istəyirəm ki...

*– Parlaq səhnə ömürlüyü yaşamış aktyor kimi bu cavab inandırıcı gəlmədi. Yəqin həyatda unudulmaqdan danışırsınız.*

– Hə, həyatda da, sənətdə, səhnədə də. Nədən və niyə qorxum? Zatən bu aqibəti zaman-zaman bütün böyük sənət adamları yaşayıblar. Çünki unudulmaq üçün daha böyük istəklərim var. Ailəmin, övladlarımın, nəvəmin yanında daha çox olmaq üçün unudulmaq istərdim. Özümlə baş-başa qalmaq üçün unudulmaq istərdim. İnanın, mənim unudulmaq qorxum heç vaxt olmayıb. Bu həyatda elə şeylər gördüm ki, siz deyən unudulmaq onun yanında çox balacadır. Həm də niyə unuduluram axı? Oğlum-qızım var, qohum-qardaşım var. Mən 65 il yaşadım, nəyi bacardım, elədim. Bundan sonra guşənişin olmağım da mənim üçün istirahətdir, rahatlıqdır. Zatən orada da dinc qalmayacam, yazacam, mütləq nə iləsə məşğul olacam. Çünki mən kənd adamıyam. Kənddə böyümüşəm. Kənd adamının unudulmaq qorxusu ola bilməz.

**65 yaşın etirafı**

"Atamı dinləməyib hüquq təhsilindən imtina etdim, sənəti seçdim və son 20 ildə ağır peşmanlıq yaşayıram. Düşünürəm ki, o sahədə daha faydalı ola, daha çox iş görə bilərdim...".

*– Məntiqiniz maraqlı gəlir...*

– İzah edim də. Şəhərdə gündə bir məhəllədə, bir məkanda ola və hər birində saysız adamlar tanıya bilərsən. Amma orada gedəcəyin bir yer var: kəndin qəbiristanlığı. Orada isə hamı doğmadır. Kənddə unudulmaq qorxusu yoxdur... Günü bu gün qəti qadağa qoyulsun ki, bəs 65 yaşı olanlar üçün tamamilə işləməyə icazə yoxdur. "Baş üstə" deyib, bu balaca otaqdan da yır-yığış edib gedəcəyəm.

*– İllər əvvəl elə bu məsələ ətrafında sizin teatrda yaşanan narahatlıq, söz-söhbətlərlə bağlı məqamı xatırladım. Sizin də səsiniz bərk gəlirdi və mən onda sizin öz 65 yaşınızın tamamındakı etirazınızı təsəvvür elədim.*

– Çox rahatam, özünüz də görürsünüz. Mən hesab edirəm ki, sadəcə, böyüksüz ev yiyəsizdir. Bu gün Rafiq Əzimov mənim üçün böyükdür, ağsaqqaldır. O gələndə ayağa qalxmaq mənim borcumdur və qalxıram da. Bunu da özümə şərəf hesab edirəm. Məncə, yaşda da, sənətdə də məndən böyükdür, niyə ayağına qalxmayım? Siz narahat olmayın, mən çox rahatam. İşlə, lazımsan deyərlərsə, işləyim, lazım deyiləmsə, sağ olun. Qazan köşkü, kəndim, daha geniş səhnə məni orada gözləyir.

*– Səhnə, sənət ömürlüyü gənclikdən parlaq olan aktyorsunuz. İllər əvvəl indiki yaşınızı necə təsəvvür edirdiniz? Həyat və sənət taleyinizi istədiyiniz kimi yaşadınızmı?*

– Bütün aktyorların rol nisgili, edə bilmədiklərinin ağrısı olur və mən də onlardan xali deyiləm. Əmin olun, edə biləcəklərimin heç 30 faizini edə bilmədim. Hərçənd potensialım, gücüm daha çoxuna çatırdı. Bu gün də var. Amma təəssüf ki, həmişə hər şey sənin istədiyin kimi olmur. Yəni müxtəlif səbəblər olur və sənin işinə əngəllər yaradılır. Mən bu yolu savaşa-savaşa getdim. Hər dəfə də haqlı olduğumu sübut etmək üçün savaşdım. Bəlkə də mənim mübarizəyə həsr elədiyim enerjim sənətə sərf elədiyim enerjidən beş qat çoxdur. Axı bizi niyə buna məcbur edirdilər?! Bu gün o savaş, o mübarizə yoxdur. Əksinə, çox rahatdır. Bizim dövrdə o azadlıq, rahatlıq yox idi. Amma mən elə o teatr üçün darıxıram.

*– Yəqin bu da o dövrün qaynar yaradıcı mühiti ilə bağlıdır.*

– Təkcə o deyil. Həmin dövrdə peşə əxlaqı anlayışı var idi. Orada hər kəs yerində idi, hər kəs yerini bilirdi. Çünki o zaman əsl teatr tənqidi var idi, hər bir aktyorun yükünü bilib o cür rol bölgüsü edən rejissorlar vardı. İndi bu çərçivələr yoxdur, əvəzində səhnədə büdrəyən də, bir-iki dəfə ümumi planda görünən də deyir ki, "mən yaratdım". Ən xoşum gəlməyən söz odur. Dilimiz zəngindir, denən ifa elədim, oynadım. Bu söz elə-belə ifadə deyil ha. Amma hər aktyor da obraz yaratmır. Aktyor paxıl, xudpəsənd olarsa, özündən başqa kimisə görməzsə, heç nə yarada bilməz. Mənim üçün bu günün aktyoru dünyada baş verən hər bir hadisədən xəbəri olan, ağlı, intellekti, mütaliəsi, istedadı bərabər şəkildə istifadə edə bilən insandır. Mənim rejissorum da aktyorumdan qat-qat artıq intellektə, dünyagörüşünə sahib olmalıdır ki, arxasınca aktyoru apara bilsin.

*– Pandemiyanın yaratdığı fasilədən sonra adaptasiyanı necə keçirsiniz?*

– Hazırda tamaşalarımızın bərpası ilə məşğuluq. "Ölülər", "Almaz", "Dəli yığıncağı", "Sinif yoldaşları", "Ah, bu uzun sevda yolu" tamaşalarının məşqlərini edirik.

*– Aktyoru qəlibə salmaq, sırf bir profildə təqdim etmək də var və bu, ümumi təsviri korlayır...*

– Yaxşı, deyin görək bir futbol matçının taleyini dəyişəcək oyunçuları harada qoyurlar? Təbii ki, hücumda, əsas nöqtələrdə. Aktyor prosesdə yetişir, potensialı orada üzə çıxır. Digər tərəfdən hər bir rejissor da istəyir ki, onun tamaşası uğurlu olsun. Hansı aktyor lokomotiv ola bilirsə, tamaşanın yükünü daşıyırsa, o aktyorla işləyir.

*– Bu, rejissorun aktyorun arxasında gizlənməyi deyil ki?*

– Bu sözdən zəhləm gedir. Elə deyil, sadəcə, güclü və zəif aktyor var və hər rejissor da çalışır güclü aktyorla işləsin. Deməli, hər bir aktyor daim öz üzərində çalışmalı və ən yaxşısı olmağa can atmalıdır. Hər bir rejissor yaxşı aktyoru həm də ona görə seçir ki, tamaşası yaxşı alınsın. Yəni siz deyən aktyorun uğuru bu mənada başa düşülür. İkinci, üçüncü dərəcəli rollardan qorxmaq lazım deyil. Mənim üçün heç vaxt amplua anlayışı olmayıb. Bu daha çox komediya aktyorlarında baş verir. Tamaşaçı əl çalıb güldüsə, deməli, hər şey əladır və belə davam eləmək olar. Bu isə yanlışdır və uğursuzluğun əsasıdır.

*– Bir az da tamaşaçını yola verməyin...*

– Tamaşaçı pul və zaman ayırıb teatra gəlirsə, biz ona təşəkkür eləməliyik, nəinki yola vermək. Bu, bir az xarakter məsələsidir və ömrüm boyu səhnədə də, həyatda da "xaltura" eləmədim. 45 illik səhnə təcrübəm var və bu zaman ərzində bütün proseslər gözümün önündə baş verib. Tamaşaçıya baxan kimi zalı hiss edirəm, onları istədiyim əhvala gətirə bilirəm. Tamaşaçı bunu anlayanda, sənin yanğını görəndə ətrafında bir pərvanə kimi dolanır. Yola verdiyini görəndə də səni səndən də yaxşı yola verir.

*– Sənətə gəldiyiniz illərdə uğurlu televiziya tamaşalarınız oldu və xeyli tanındınız. Amma böyük kinoya keçid alınmadı. Teatr sevgisi ağır basdı, yoxsa kino işi çətin göründü?*

– Bəyəm kinoya düşmək asan idi? Bizim ömrümüzün ən gözəl, ən məhsuldar vaxtları getdi, amma oralara düşə bilmədik. Necə deyərlər, "div"lər bizim kinoya gedən yolumuzu kəsdilər. Hətta səsyazmaya, dublyaja da yollar dolanbaclı, maneəli idi. Dəfələrlə adım rol siyahısından çıxarılıb. Hətta bir filmdə çəkiliş meydançasına çıxdığım anda "Cavan oğlan, sən yox, başqası oynayacaq" dedilər. Sağ olsunlar, əvəzində kaskadyorluğa çağırırdılar. Çünki seçdikləri aktyor at çapa, qılınc oynada, döyüş səhnələrində plastikasını göstərə bilmirdi. Kinoda illər sonra, artıq yaşa dolanda "Cavad xan"da oynadım. Ona görə ki, ssenari müəllifi də, rejissor da orada Nurəddini görürdü.

*– Müəyyən yaş dövründən sonra aktyorlar bütün səhnəni ələ almaq üçün monotamaşalara üstünlük verirdilər. Sizdə də bir təcrübə oldu, yaxşı da alındı. Bəs niyə davamı gəlmədi?*

– Mən həmişə monotamaşaya, tək oyuna maraqlı olmuşam və potensialıma bu sarıdan da çox güvənirəm. Bu, aktyorun güc nümayişidir. Mən "Kreppin sonuncu lent yazısı"nda bunu isbat elədim. Sağ olsunlar, tamaşanı qəbul elədilər, bəyəndilər. Bu yaxınlarda bir təklif də gəlib. Adını çəkməyəcəm, amma əmin olun ki, çox çətin və maraqlı iş olacaq.

*– Eşitdim şeirlər kitabınızı çapa hazırlayırsınız.*

– Bəli, bir aya çapdan çıxar. Bundan başqa, "Yaşadığım bu ömür" adlı memuarım da çap olunacaq. Ardınca da müharibə xatirələrimi ortaya çıxaracam. Mən də pandemiyanı, "evdə qal"ı belə yola saldım.

*– Yazmaq hansı ehtiyacdan yarandı? Deməyin ki, daxili tənhalıqdan?*

– Orta məktəbdən şeir yazırdım. İllər keçir, ömür bizi bəzən özümüzlə baş-başa qalmağa vadar edir. Yəqin şeir də onda yaranır. Mənə toxunan ağrı-acılar, təlatümlər. Mən Cəlilabad rayonunun Tahirli kəndindən çıxdığım gündən həyatımı qələmə alıram...

*– 65 illik ömrün sənətdə keçən 45 ili. Maraqlıdır, dağ kəndindən gələn oğlanın heyhatları çoxdur, yoxsa sevincləri?*

– (Dərindən ah çəkir və düzü, bu məni qorxudur) Bütün uşaqlara bir məsləhətim var: böyüklərinin sözündən çıxmasınlar. Heç bir ata övladının pisliyini istəməz. Mən atamı dinləməyib hüquq təhsilindən imtina etdim, sənəti seçdim və son 20 ildə ağır peşmanlıq yaşayıram. Düşünürəm ki, o sahədə daha faydalı ola, daha çox iş görə bilərdim. Xüsusən sənət, ona münasibətdə olan aşınma məni peşmanlığa yuvarladı. Sənətimizə, peşəmizə sevgi, hörmət gözləyirəm, gərək bu dəyər itməyəydi.

*– Söhbəti ad günü ovqatına kökləyək. Günü necə keçirdiniz, kimlərdən təbrik aldınız?*

– Övladlarımdan, qohumlarımdan, sənət dostlarımdan. Sizdən əvvəl Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva ilə görüşdüm. Xeyli dərdləşdik.

*– Səhnədə Şah İsmayıl Xətai rolunu oynamaq nisgilinizi bilirəm. Amma artıq onun zamanı keçib, yaş çoxdan ötüb. 65 yaşlı Nurəddin Mehdixanlı indi kimi oynamaq istəyir?*

– Kral Liri. O rolu oynayıb teatrda qalmaq da olar, getmək də. O, sənin görəcəyin işin nəticəsindən asılıdır. Yəqin bu da mənim üçün qu quşunun son nəğməsi olacaq...

*– Gəlin, söhbəti şeirlə bitirək. Bu yaşınızın misraları hansılardır?*

*– Mənim ömrüm yaz qarıymış,*
*sən demə,*
*Dağa-daşa səpələndi,*
*yox oldu...*

Uzun yol gəlirsən və parça-parça dağa-daşa səpələnir, yox olub gedirsən...

**Söhbətləşdi: H.NİZAMİQIZI**

# Qəhrəmanlar can verir yurdu yaşatmaq üçün

Azərbaycan İstiqlal Muzeyi 44 günlük Vətən müharibəsi şəhidlərinin əziz xatirəsinə həsr olunmuş "Qəhrəmanlar can verir yurdu yaşatmaq üçün" adlı layihə üzrə silsilə tədbirlərə başlayıb.



Oktyabrın 19-da layihənin ilk sərgisində Vətən Müharibəsi Qəhrəmanı, polkovnik-leytenant Orxan Əkbərov, Vətən müharibəsi şəhidləri – kapitanlar Arzu İsgəndərov və Samid Əsgərovun şəxsi əşyaları nümayiş etdirilib.

Tədbirdə İstiqlal Muzeyinin direktoru Sədi Mirseyibli, ehtiyatda olan polkovnik Şair Ramaldanov, şəhid kapitan Arzu İsgəndərovun qardaşı – Vətən müharibəsi iştirakçısı Amil İsgəndərov, Vətən Müharibəsi Qəhrəmanı, polkovnik-leytenant Orxan Əkbərovun əmisi Yusif Əkbərov, şəhid kapitan Samid Əsgərovun anası Sevinc Əsgərova və şəhidin döyüş yoldaşı, gizir Amil Əbilov çıxış ediblər. Vətən Müharibəsi Qəhrəmanı Orxan Əkbərovun qızı atası ilə bağlı xatirələrini bölüşüb.

Sərgidə şəhidlərə məxsus hərbi geyimlər, onların döyüş yolunu əks etdirən fotolar və digər şəxsi əşyalar sərgilənir. Tədbirdə şəhid ailələri, Dövlət Sərhəd Xidməti Akademiyasının kursantları, Nizami rayonu 10 saylı tam orta məktəbin müəllim və şagirdləri iştirak ediblər.

Layihənin ilk sərgisi 23 oktyabr tarixinədək açıq olacaq.

# Qardaşlıq dastanı səhnəyə çıxır

Tarixdən gələn qardaşlıq bağları ilə, eyni tarixi, mədəniyyəti, kədər və zəfərləri bərabər yaşayan bir millət, iki dövlətin hekayəsi səhnəyə çıxarılır.

Oktyabrın 22-də Ankaranın Konqres və Sərgi Mərkəzində "Bir millət – iki dövlət" adlı vizual tamaşa nümayiş olunacaq. Türkiyə və Azərbaycandan 100 sənətçinin iştirakı ilə lirik, müasir və xalq rəqsləri, teatral səhnələrin bir arada olduğu təqdimat tamaşaçılara unudulmaz anlar yaşadacaq. Beş il sürən məşq sayəsində ərsəyə gələn ikihissəli (hərəsi 45 dəqiqə) layihə 12 fərqli səhnə performansını əhatə edəcək.

Bu barədə layihənin Azərbaycandan olan iştirakçısı Turxan Nəcəfxanlı məlumat verib. O bildirib ki, layihənin rəhbəri Serhat Turak məşhur "Anadolu atəşi" qrupunun rəqqası kimi illərdir bütün dünyanı dolaşaraq türklüyü, türk mədəniyyətini təbliğ edir. Bu gün isə uzun müddətdir üzərində çalışdığı və xəyalını qurduğu layihəni gerçəkləşdirir.

Qeyd olunub ki, rəqs şousu Türkiyə və Azərbaycanın keçmişdən bu günə ən önəmli hadisələrini, Nizami Gəncəvi, Mövlanə, Mehmet Akif Ərsoy, Əhməd Cavad və s. görkəmli şəxsiyyətlərin həyat və yaradıcılığını əks etdirəcək. Müzikldə hadisələr Dədə Qorqudun dili ilə nəql olunur.

Layihənin Türkiyə və Azərbaycanla yanaşı, digər türkdilli ölkələrdə və Avropada da təqdim edilməsi nəzərdə tutulur.

**LALƏ**

# Kitabxanada uşaq yazarı ilə görüş

F.Köçərli adına Respublika Uşaq Kitabxanasında "nağıl saatı" çərçivəsində uşaq yazarı Mehriban Nağıyeva ilə görüş təşkil olunub. Görüşdə paytaxtdakı 60 nömrəli tam orta məktəbin 2-ci və 3-cü sinif şagirdləri iştirak ediblər.



Yazıçı "Xarıbülbül və Günəşin nağılı", "Lovğa tülkü", "Dərdli kirpi" nağıllarını, hekayə və təmsillərini oxuyub, "Qazlar", "Şuşa", "Gicitkən" və s. şeirlərini səsləndirib.

Uşaqların suallarını cavablandıran Mehriban Nağıyeva əsərlərinin mövzularını real həyatdan aldığını, balacalar üçün yazıb-yaratmaqdan xoşbəxt olduğunu deyib. Bildirib ki, uşaqlar üçün yazılan əsərlər, nağıllar hər bir uşağın söz ehtiyatının zənginləşməsinə və səlis nitqə malik olmasına kömək edir.

Görüşün sonunda müəllim və valideynlər "nağıl saatı"nın təşkili üçün kitabxana kollektivinə və yazıçıya minnətdarlıqlarını bildiriblər.

Sonda uşaqlara yazıçının imzaladığı "Uşaqların şeir payı", "Əsmərin sehrli zənbili", "Ay səni, tülkü lələ" nağıl kitabları və kitabxananın "Göy qurşağı" jurnalı hədiyyə edilib.

Qeyd edək ki, Mehriban Nağıyevanın uşaqlar üçün yazdığı 11 kitabı işıq üzü görüb. Onun əsərləri tərbiyəvi əhəmiyyətə malikdir və uşaqları yüksək mənəvi keyfiyyətlərə sahib olmağa səsləyir.

# "Azərbaycan təbii gözəllikləri ilə kəşf edilməyi gözləyən ölkədir"

## Tevfik Ulual: "Şimali Kipr universitetləri Azərbaycandan şəhid və qazi övladları üçün xüsusi təqaüd proqramı təsis edib"

Şimali Kipr Türk Cümhuriyyətinin Bakıdakı nümayəndəliyinin mədəniyyət və təhsil əlaqələri üzrə attaşesi Tevfik Ulual ölkəmizin mədəni həyatında fəallığı ilə seçilir. O, 1990-cı ildən Şimali Kiprin təhsil ocaqlarında ingilis dilinin tədrisi ilə məşğul olub. 2019-cu ildən isə ölkəsinin Azərbaycandakı nümayəndəliyinin mədəniyyət və təhsil əlaqələri üzrə attaşesi vəzifəsində çalışır. Tevfiq bəy eyni zamanda peşəkar fotoqrafdır. İtaliyanın Florensiya şəhərində fotoqrafiya sənəti üzrə təhsil alıb. Bir çox beynəlxalq sərgi və müsabiqələrin qalibi olub, həmçinin fotomüsabiqələrdə münsif kimi də iştirak edir. Ölkəmizdə olduğu müddətdə sevimli sənətini də davam etdirir, maraqlı fotolar çəkir.

*– Tevfik bəy, Azərbaycana gələnə qədər ölkəmiz haqqında nə bilirdiniz?*

– Bu vəzifənin mənə həvalə edilməsindən çox məmnun oldum. Azərbaycanı adət-ənənə baxımından bizlərə çox bənzəyən, kök, dil və din birliyi olan, tarixi və mədəniyyəti zəngin qardaş ölkə kimi tanıyırdım. Təbii zənginlikləri ilə bərabər "küləklər şəhəri" olan Bakı hər zaman diqqətimi çəkən məkanlardan biri idi.

*– Hazırda ölkələrimizin mədəni əlaqələrini necə qiymətləndirirsiniz?*

– İlk öncə onu qeyd edim ki, hər il 15 Noyabr – Şimali Kipr Türk Cümhuriyyətinin elan edildiyi gün və 20 İyul – Barış və Müstəqillik Bayramında, həmçinin müxtəlif festivallar, idman yarışları və beynəlxalq konfranslarda iki ölkənin elm və mədəniyyət adamları yaxından iştirak edir. Azərbaycanın ədəbiyyat və mədəniyyətinin böyük şəxsiyyətləri – Nizami, Füzuli, Üzeyir Hacıbəyli, Qara Qarayev, Rəşid Behbudov və başqaları Şimali Kiprdə yaxşı tanınır. Düşünürəm ki, mədəniyyət, ədəbiyyat və təsviri sənət sahələrində əlaqələrin qarşılıqlı şəkildə inkişaf etdirilməsi mədəni əməkdaşlığın inkişafını daha da sürətləndirəcək.

*– Fəaliyyətə başlayanda yəqin ki, qarşınıza qoyduğunuz müəyyən prioritetlər var idi. Onları yerinə yetirə bildinizmi?*

– Ən böyük məqsədlərimiz təhsil və mədəniyyət sahələrində əlaqələri inkişaf etdirmək və daha çox əməkdaşlıq etməkdir. Şimali Kiprin 21 universitetində müxtəlif ölkələrdən 100 mindən çox tələbə təhsil alır. Universitet diplomlarımızın dünyada tanınması, gözəl təbiəti, sosial durumu, təhlükəsiz mühiti və yüksək keyfiyyətli təhsili sayəsində Şimali Kipr xarici tələbələr üçün cazibə mərkəzinə çevrilib. Dünyanın 140 ölkəsindən gənclər Şimali Kiprdə gələcək karyeralarının təməlini qoyurlar. Qardaş Azərbaycandan tələbələrin sayının artması əlaqələrimizi gücləndirəcək. COVİD-19 pandemiyası bütün dünyada təhsilə, mədəniyyətə mənfi təsir göstərdi. Təhsil və mədəniyyət sahələrində planlar tamamilə



dayandı və ya yavaşladı. Bir sıra tədbirlər təxirə salındı. İnşallah, gələcəkdə planlarımızı davamlı şəkildə həyata keçirəcəyik.

*– İndi isə yaradıcılığınızdan danışaq. Daha çox portret, təbiət mənzərələrini çəkməyi xoşlayırsınız. Bunun səbəbi nədir?*





– Əslində, studiya və makro fotoqrafiya istisna olmaqla bütün sahələrdə şəkil çəkməyi sevirəm. Bunların əvvəlində, dediyiniz kimi, mənzərə, portret, səyahət və idman fotoqrafiyası dayanır. Təbiət sevgisi sizi mənzərə fotoqrafiyasına yönəldir. Təbiətdəki rənglərin və mənzərələrin müxtəlifliyi heyrətləndiricidir və bu görüntüləri saxlamaq, fotoyaddaşa köçürmək və paylaşmaq istəyirsən. Günəş doğanda və ya batanda təsvir edilə bilməyən gözəlliklər yaranır. Şəhər mənzərələri də çox gözəl material verir. Düşünürəm ki, Azərbaycanımız təbii gözəllikləri ilə kəşf edilməyi gözləyən bir ölkədir. Coğrafiyası, dağları, meşələri, çayları, gölləri və şəlalələri ilə möhtəşəm kadrlar çəkə bilərsiniz. Xüsusən də Bakı köhnə tarixi binaları və müasir bənzərsiz memarlığı ilə fotoqraflar üçün çox cəlbedici bir şəhərdir. Portret ilə insanların duyğu və düşüncələrini fotoşəkildə əks etdirmək üçün gözəl janrdır. Uşağın gülüşündəki gözəllik, ağıl, məna, kədər və ya xoşbəxtlik, yaşlı adamın baxışlarında bu hissləri tutub ölümsüzləşdirmək. Səyahət və idman fotoqrafiyasından da zövq alıram.

*– Beynəlxalq layihələrdə çoxsaylı mükafatlar da qazanmısınız...*

– 2008-ci ildən fotoqrafiya ilə maraqlanıram. Elə həmin il "FODER" Kipr Türk Fotoqraflar Dərnəyinə üzv olmuşam və uzun illər İdarə heyətində çalışmışam. İndi də dərnəyin üzvüyəm. Fotoqrafiya müəllimi və münsif üzvü kimi üzərimə götürdüyüm öhdəliyi yerinə yetirmişəm. Ölkəmizdə və xaricdə iştirak etdiyim milli və beynəlxalq fotoqrafiya yarışmalarında, sərgilərdə mükafatlar almışam. 2019-cu ildə Beynəlxalq Fotoqrafiya Sənəti Federasiyasının gümüş mükafatına layiq görülmüşəm. Ancaq heç vaxt mükafat qazanmaq üçün müsabiqələrə qatılmamışam.

*– Bu ilin aprelində sizin nümayəndəliyin Bakıda təşkil etdiyi "Qardaş ölkələr" adlı fotosərgi maraqla qarşılandı. Sərginin ideyası necə yaranmışdı?*

– Ölkəmizlə bağlı fotoşəkillər və vəzifəmə başladığım 2019-cu ilin iyul ayından bəri Azərbaycanda çəkdiyim şəkillərdən ibarət bir sərgi açmaq həmişə ağlımda idi. Sərgi ulu öndər Heydər Əliyevin və görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 98-ci ildönümlərinə həsr olundu və böyük maraq doğurdu. Düşünürəm ki, belə bir sərgi mədəniyyət və incəsənət fəaliyyətlərinin ölkələrimizin qarşılıqlı tanıtımında oynayacağı rolu göstərmək baxımından yaxşı bir nümunə oldu.

*– Qarşıda hansı layihələriniz gözlənilir?*

– Dövlətimiz hər il imkanlar çərçivəsində ölkəmizdə təhsil alacaq azərbaycanlı tələbələrə müxtəlif təhsil təqaüdləri verir. Bu il əlavə olaraq Türkiyə və Azərbaycan İş Adamları və Sənayeçilər Birliyinin (TÜİB) başqanı Hüseyin Büyükfıratın rəhbərliyi ilə başladılan "Bir millət, bir ürək" kampaniyası sayəsində ölkəmizdəki üç universitet ümumilikdə 22 təhsil təqaüdü verəcəyini bildirdi. Bu əlavə təqaüd Şimali Kiprə təhsil almağa gələcək Qarabağ müharibəsi şəhidləri və qazilərinin övladları üçün nəzərdə tutulub. Eyni zamanda Azərbaycan Dövlət Tərcümə Mərkəzi ilə Azərbaycan ədəbiyyatının, tarix və mədəniyyətinin təbliği məqsədilə əməkdaşlıq əlaqəsi qurulub. "Qardaş ölkələr" sərgimizi Bakıdan savayı digər şəhərlərdə də nümayiş etdirmək istəyirik. İmkan daxilində mədəniyyət və təhsil sahəsində yeni layihələr üzərində çalışırıq.

*– Azərbaycanın regionlarına, gəzməli-görməli yerlərinə səyahət etmək imkanınız olubmu?*

– Bəli, fürsət düşdükcə gözəl Azərbaycanı gəzib tanımağa çalışıram. Qobustan qoruğu, palçıq vulkanları, Atəşgah məbədi, Yanardağ, eləcə də Şamaxı, Oğuz, Quba, Qəbələ, İsmayıllı və s. rayonların gözəl təbiət mənzərələri ilə tanış olmuşam. Ancaq hələ görməli daha çox məkan və tarixi yerlər var. Ən böyük arzum isə 30 illik həsrətdən sonra işğaldan azad olunmuş əraziləri ziyarət etməkdir. Yəqin ki, tezliklə bu arzum da reallaşar.

*– Ölkəmizin mədəni həyatına bələdliyiniz necədir?*

– Akademik Opera və Balet Teatrında Üzeyir bəyin "Leyli və Məcnun" və "Koroğlu" operalarının tamaşasına baxmışam. Bakı tarixi binaları ilə açıq hava muzeyinə bənzəyir. Hər yerdə, hər küncdə tarixi bir bina və ya abidə var. Siyasətdən sənətə qədər ölkənin görkəmli şəxsiyyətlərinin abidələrini qorumaqla onların gələcək nəsillər tərəfindən tanıdılması çox yaxşı bir təcrübədir. Heydər Əliyev Mərkəzinin ayrı bir gözəlliyi var və çoxməqsədli mədəniyyət mərkəzidir. Bütün dünyanın görmək istədiyi bir memarlıq şedevridir. Yeri gəlmişkən, məşhur memar Zaha Hadidin layihə rəhbəri olduğu bu möhtəşəm tikilinin memarlarından biri Şimali Kiprdən Saffet Kaya Bekiroğludur. Milli Xalça Muzeyi də təkrarsız bir məkandır. Bir sözlə, Azərbaycanda görməli, zövq almalı zəngin bir mədəniyyət aurası var.

*– Müsahibəyə görə təşəkkür edirəm.*

– Mən də oxucularınızla ünsiyyət imkanı yaratdığınıza görə minnətdaram.

**L.AZƏRİ**

# Sənin səhnəndir!...

## Zəfərimizə həsr olunan festivallar teatr mühitini də canlandıracaq

Zəfərlə bitən Vətən savaşımıza ədəbiyyatın, kinonun, musiqinin, teatrın, ümumən yaradıcı sənayenin münasibəti, bəzən də münasibətsizliyi haqqında tez-tez müzakirə aparırıq. İkinci Qarabağ müharibəsinin sənətdə inikası barədə təhlil apararkən teatrla bağlı iki müsabiqə diqqətimizi cəlb etdi. Hərçənd könül istərdi ki, belə layihələr daha çox olsun...

Müsabiqələrdən birini Azərbaycan Teatr Xadimləri İttifaqı (ATXİ) təşkil edir. Qurum 1-8 noyabr tarixində Vətən müharibəsində şanlı Qələbəmizin ildönümünə həsr olunmuş "Qalib olan Azərbaycan" adlı teatr festivalı keçirəcək. Təşkilatçılar pandemiya şəraitinə uyğun olaraq tamaşaları videoformatda qəbul etsələr də, festival günlərini canlı ünsiyyətlə keçirməyi düşünürlər.

Festivalın keçirilməsində əsas məqsəd Ali Baş Komandanın rəhbərliyi ilə Ordumuzun göstərdiyi qəhrəmanlığı, tarixdə əbədi qalacaq Zəfərə doğru gedən çətin və şərəfli yolu əks etdirən dramaturji nümunələrin sayını artırmaq, milli mədəniyyət məkanında baş verən yaradıcılıq proseslərini fəallaşdırmaqdır.

Münsiflər heyəti tərəfindən seçiləcək tamaşalar 1-8 noyabr tarixində ATXİ-nin zalında oynanılacaq və geniş auditoriyanın müzakirəsinə çıxarılacaq.

İkinci layihə Mədəniyyət Nazirliyi və "Teatro.az" sənət portalının keçirdiyi "4.4 Qısa Tamaşalar Festivalı"dır. Bu layihənin də məqsədi Azərbaycan Ordusunun parlaq Qələbəsinin bədii əksi, həmçinin milli teatr sənətinin rəqəmsal dünyada təbliğidir. Festival həm də pandemiyanın doğurduğu obyektiv səbəblər üzündən durğunlaşmış teatr prosesinin dirçəldilməsi və teatr xadimlərini yaradıcı təşəbbüslərə təşviq etmək məqsədini qarşıya qoyub.

Festivalın adı rəmzi məna daşıyır. Qoşa 4 rəqəmi ən yeni tariximizin şanlı səhifələrini təşkil edən 44 günlük Vətən müharibəsində qazandığımız Zəfəri və bu qalibiyyət yolunun təməlinin qoyulduğu 2016-cı ilin dördgünlük Aprel döyüşlərini simvolizə edir.

Otuz ilə yaxın işğal altında olan torpaqlarımızın rəşadətli Azərbaycan Ordusu tərəfindən 44 günlük Vətən müharibəsində azad edilməsi milli teatr sənətində də öz təcəssümünü tapmalıdır. Bu mənada, inanaq ki, "4.4 Qısa Tamaşalar Festivalı" xalqımızın haqq savaşındakı qalibiyyətini Azərbaycan teatr tarixində əbədiləşdirməklə yanaşı, teatr mühitindəki sükunəti də aradan qaldırmağa, teatr sənətinin təbliğinə və inkişafına xidmət edir.

Layihə barədə məlumat verən sənət portalının təsisçisi, teatrşünas Elçin Cəfərov festivalın teatr ictimaiyyəti tərəfindən maraqla qarşılandığını deyir: "Dövlət teatrlarından, özəl teatr kollektivlərindən, eləcə də müstəqil sənətçilərdən çoxlu müraciətlər daxil olub. Xüsusən gənclərin layihəyə maraq göstərməsi, paytaxt teatrları ilə yanaşı, bölgə teatrlarının da festivala qoşulması həm təşkilatçı, həm də teatrşünas kimi məni çox sevindirir. Tamaşaların qəbulu mərhələsi 15 oktyabrda başa çatsa da, müraciət edənlər hələ də var. Festivalın proqramı zəngin olacaq. Tamaşaların nümayişi noyabrın birinci həftəsinə nəzərdə tutulub. Layihə ilə bağlı Teatr Xadimləri İttifaqı ilə də danışmışıq. İstəyirik ki, tamaşaların müzakirəsinə, peşəkar münsiflər heyəti ilə yanaşı, ATXİ-nin nəzdində "Teatrşünaslar laboratoriyası"nın gənc ekspertləri də cəlb edilsin. Bu cür layihələrdə gənc tənqidçilərin də iştirakı teatr prosesinin intensivləşməsi və teatrşünaslığın inkişafı üçün olduqca səmərəlidir".

Dünya teatr təcrübəsi göstərir ki, festivallar həmişə prosesin inkişafına güclü təkan verir, bu sahədə canlanmaya səbəb olur. İnanırıq ki, hər iki təşəbbüs pandemiyadan qurtulmağa çalışan teatrlarımızın, teatr təmsilçilərinin aktiv iştirakı ilə reallaşacaq. Bizlər də baxımlı nümunələri seyr edə biləcəyik...

**Həmidə NİZAMİQIZI**

# "Musiqili proyektor" kino yaddaşımızı təzələyəcək

Azərbaycanda ilk dəfə olaraq "ART-EAST MEDİA GROUP" şirkətinin təşkilatçılığı ilə "Musiqili proyektor" multimedia şousu təqdim olunacaq. Musiqili şou proqram 13-14 noyabr tarixlərində Dövlət Təhlükəsizliyi Xidmətinin Mədəniyyət Mərkəzində keçiriləcək.

Layihə Cəfər Cabbarlı adına "Azərbaycanfilm" Kinostudiyası, "CinemaPlus" kinoteatrlar şəbəkəsi və Azərbaycan Respublikası Gənclər Fondunun dəstəyi ilə "AVANQARD" kamera orkestrinin ifasında sevilən kinofilmlərin soundtrekləri yeni aranjimanda tamaşaçıları keçmişə aparacaq.

Məşhur filmlərin unudulmaz musiqiləri, parlaq rəqs nömrələri və cizgi filmlərindən tanış fraqmentlər izləyicilərin könlünü oxşayacaq.

# Səkkiz əsrlik "Yeddi gözəl" möcüzəsi

Dünya şöhrətli Azərbaycan şairi və mütəfəkkiri, bu il 880 illiyi müxtəlif ölkələrdə, beynəlxalq təşkilatlarda qeyd olunan Nizami Gəncəvinin (1141-1209) beş poema-məsnəvidən ibarət "Xəmsə"si (beşlik) bəşəriyyətin bədii-fəlsəfi fikir salnaməsinin ən dəyərli səhifələrindəndir. "Sirlər xəzinəsi", "Xosrov və Şirin", "Leyli və Məcnun", "Yeddi gözəl" və "İsgəndərnamə" poemaları dahi şairin sülh, humanizm, zəhmət, birlik, bərabərlik və s. mütərəqqi ideyalarının əks olunduğu qiymətli xəzinələrdir.

"Xəmsə"yə daxil olan dördüncü əsər "Yeddi gözəl" ("Həft peykər") poemasıdır. 1197-ci ildə qələmə alınan əsər Marağa hakimi Əlaəddin Körpə Arslana ithaf edilib. "Yeddi gözəl" müxtəlif hesablamalara görə, 4637-5136 beytdən ibarətdir.

Hökmdar və xalq problemi poemanın ana xəttini təşkil edir. Əsərin mövzusu Sasanilər sülaləsinin beşinci hökmdarı Bəhram Gur (406-439) haqqında rəvayətlərdən alınıb. Şair əsərdə Bəhram şahın həyatını əks etdirmək adı altında öz dövrü haqqında tənqidi fikirlərini ifadə edib.

Əsər əsasən Hindistan, Türküstan, Xarəzm, Rus, Çin, Rum (Bizans) və İran ölkələrindən gətirilən və rəngli saraylarda yaşayan yeddi gözəlin hekayələrindən



ibarətdir. Maraqlı nağıl və məhəbbət macəralarının içərisində şair zülmkar şahları xalqın qayğısına qalmağa, dövləti, ölkəni ədalətlə idarə etməyə çağırır...

1832-ci ildə "Yeddi gözəl" poemasından slavyan gözəlinin hekayəsi şərqşünas Frans Erdman tərəfindən alman dilinə tərcümə edilib və Kazanda "Bəhram Gur və rus şahzadəsi" adı ilə nəşr olunub. Bu hissə 1844-cü ildə Kazanda yenidən çapdan çıxıb. 1846-cı ildə Londonda, uzun müddət Hindistan və İranda yaşamış Qor Ouslinin bir kitabında poemanın əvvəlində verilmiş bəzi hissələr – Bəhram Gurun qonşu ərəb hökmdarı Noman tərəfindən böyüdülməsi, Çin gözəlinin danışdığı "Xeyir və Şər" hekayəsi və hökmdar və vəzir haqqında hekayə (poemanın bağlanış hissəsi) hərfi tərcümə ilə ingilis dilində təqdim edilib. Alman filoloqu Pol Horn 1901-ci ildə çap etdirdiyi kitabında "Yeddi gözəl" poemasının məzmununa geniş yer verib.

"Yeddi gözəl"in Qərbi Avropa dillərinə tam şəkildə üç klassik tərcüməsi vardır. Poema ilk dəfə Çarlz Eduard tərəfindən 1924-cü ildə ingilis dilinə tərcümə olunub. Tərcümə sərbəst şeir şəklində olmaqla və bəzi istisnalarla orijinalı tamamilə əks etdirib. Birinci nəşrdə tərcümə, ikinci nəşrdə isə şərhlər verilib. Bu tərcümə sonradan bir neçə dəfə təkrar çap olunub. Poema Oksford Universitetinin professoru Culi Skott Meysami tərəfindən də ingilis dilinə tərcümə olunub. Bu tərcümə 1967-ci ildə təkrarən isə 1995-ci ildə Böyük Britaniya və ABŞ-da nəşr edilib. Ritter-Rıpka nəşrinə əsaslanan bu tərcümə də sərbəst şeir şəklində həyata keçirilib. Poema üçüncü dəfə Elsi Mattin və Corc Hill tərəfindən ingilis dilinə tərcümə olunaraq 1976-cı ildə nəşr edilib.

"Yeddi gözəl" 1976-cı ildə Alessandro Bauzani tərəfindən italyan dilinə tərcümə olunub. Çoxsaylı tərcümələr arasında Rudolf Qelpkenin alman dilinə tərcüməsini (1959, Sürix) də qeyd etmək olar. 1922-ci ildə Moskvada poemanın bir hissəsi rus dilində nəzmlə, "Nizami - Yeddi gözəl. Hind şahzadəsinin hekayəsi" adı ilə nəşr edilib. Bu tərcümə hələ Birinci Dünya müharibəsindən əvvəl Rusiya Ədəbiyyatsevərlər Cəmiyyətinin üzvü Aleksey Qruzinski tərəfindən "Sabaşnikov" nəşriyyatı üçün həyata keçirilmişdi. 1923-cü ildə "Vostok" jurnalında poemanın bəzi hissələri rus dilində işıq üzü görüb. Bu nəşri sonradan nizamişünas alim kimi geniş şöhrət tapan Yevgeni Bertels həyata keçirib.

"Yeddi gözəl"i rus dilinə tam şəkildə Vladimir Derjavin (nəzmlə, 1959, Moskva) və Rüstəm Əliyev (nəsrlə, 1983, Bakı) tərəfindən tərcümə edilib. Poemanın Xalq şairi Məmməd Rahim tərəfindən Azərbaycan dilinə bədii tərcüməsi 1983, 2004, 2006 və 2013-cü illərdə Bakıda nəşr olunub.

Onu da qeyd edək ki, əsrlər boyu "Yeddi gözəl" əsərinin əlyazma nüsxələrini bəzəyən Təbriz, Şiraz, Herat, İsfahan, Yəzd, Buxara və digər şəhərlərdən olan miniatürçü rəssamlar poemanın müxtəlif səhnələrini əks etdirən əsərlər yaradıblar. Dahi Nizaminin bu əsərinin dünyada şöhrət qazanmasında böyük bəstəkar Qara Qarayevin "Yeddi gözəl" baleti (1952) mühüm rol oynayıb. Bu gün də dünyanın məşhur səhnələrində nümayiş olunan balet musiqi mədəniyyətimizlə yanaşı, Nizami Gəncəvi fenomenini də beynəlxalq aləmdə tanıdır.

**Savalan FƏRƏCOV**

# Dünyanı bəzəyən Nizami heykəlləri

*əvvəli səh. 1-də*

### Rusiya şəhərlərində




Böyük söz ustadının ölkəmizdən kənarda bir neçə abidəsinin ucaldıldığı ölkə Rusiyadır. Bunlardan biri paytaxt Moskvada 1991-ci ildə ucaldılıb. Azərbaycan səfirliyinin yaxınlığında yerləşən abidənin heykəltəraşları T.Zeynalov və E.Zeynalov, memarları R.Əsgərov və P.Əliyevdir. Dahi şair ənənəvi Şərq geyimində, əlində kitablarla oturmuş şəkildə təsvir edilib.

Şimal qonşumuzun ikinci böyük şəhəri Sankt-Peterburqda da Nizaminin heykəli qoyulub. 2002-ci il iyunun 9-da heykəlin təntənəli açılış mərasimi keçirilib. Abidənin açılışında Azərbaycan Prezidenti Heydər Əliyev və Rusiya Prezidenti Vladimir Putin iştirak ediblər. Şəhərin Kamennoostrovski prospektində qoyulan heykəl Bakıda hazırlanıb və Sankt-Peterburqun 300 illiyinə Azərbaycanın hədiyyəsi kimi göndərilib. Abidənin müəllifi tanınmış heykəltəraş, Əməkdar rəssam Görüş Babayev, postament layihəsinin müəllifi isə Rusiyanın Əməkdar rəssamı Feliks Romanovskidir.

Tuncdan tökülmüş heykəlin hündürlüyü 5 metrdir, abidə kompleksinin ümumi hündürlüyü 7 metrə çatır. Öz məşhur "Xəmsə"si ilə adını dünya poeziyasının dahi nümayəndələri sırasına yazdıran Nizami bu abidədə şair-filosof obrazında təsvir olunub. Nizaminin tağlı formanın önündə başı buludlara "söykənən" fiqurunun bu ucalığı da rəmzi məna daşımaqla dünya poeziya zirvəsini fəth etmiş şair dühasının əlçatmazlığına bədii işarədir.

Rusiya Federasiyasında dahi şairə daha bir abidə Çuvaşıstan Respublikasının paytaxtı Çeboksarı şəhərində ucaldılıb. Açılışı 2004-cü il fevralın 24-də gerçəkləşən heykəlin müəllifi Xalq rəssamı, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının rektoru Ömər Eldarovdur.

### Daşkənd

Nizami Gəncəvi irsi özbək klassik ədəbiyyatına da mühüm təsir göstərib. Şairin bədii irsindən təsirlənərək özbək ədibləri maraqlı əsərlər yaradıblar. Nizami Gəncəvi dühasına, keçmişdə olduğu kimi, bu gün də Özbəkistanda böyük sevgi və ehtiram var. Bu ehtiramın ifadəsidir ki, dahi şairə qoyulan abidələrdən biri də paytaxt Daşkənddədir. 2004-cü il martın 23-də Azərbaycan və Özbəkistan prezidentləri İlham Əliyev və İslam Kərimovun iştirakı ilə Nizaminin büstünün açılışı olub. Abidə söz ustadının adını daşıyan Daşkənd Dövlət Pedaqoji Universitetinin qarşısındakı meydanda yerləşir. Dahi şairin büstü tanınmış özbək heykəltəraşı İlham Cabbarov tərəfindən hazırlanıb.

### Kişineu



Nizami ideyaları əsrlər öncədən avropalılara da məlum idi. Təsadüfi deyil ki, böyük alman mütəfəkkir ədibi İ.V.Höte Nizami Gəncəvini "bütün zamanların və xalqların şairi" kimi dəyərləndirmişdi. Daha bir tanınmış alman şairi H.Heyne isə "Almaniyanın öz böyük şairləri var... Ancaq onlar Nizami ilə müqayisədə kimdirlər ki?" – deyə yazaraq söz ustadının dünya ədəbiyyatındakı yerini vurğulamışdı.

Böyük şərqli şairin Avropada da abidələri qoyulub. Nizami abidəsinə ev sahibliyi edən şəhərlərdən biri də Moldovanın paytaxtı Kişineudur. 2005-ci ildə bu şəhərdə mütəfəkkir şairin büstünün təntənəli açılışı olub. Mərasimdə Prezident İlham Əliyev və Moldovanın dövlət başçısı Vladimir Voronin iştirak ediblər. Abidənin qoyulması ideyası isə Vüqar Novruzovun rəhbərlik etdiyi Moldova Azərbaycanlıları Konqresinə məxsusdur. Abidənin müəllifi Xalq rəssamı Akif Əsgərovdur, postamenti Moldovanın Əməkdar memarı Semyon Şoyxet hazırlayıb.

### Roma

2012-ci il aprelin 20-də İtaliyanın paytaxtı Roma şəhərindəki Villa Borgeze bağında Nizami Gəncəvinin abidəsi qoyulub. Abidənin üzərində italyanca "Azərbaycan şairi Nizami Gəncəvi 1141-1209" sözləri yazılıb.

Abidə Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 dekabr tarixli "Azərbaycanın dahi şair və mütəfəkkiri Nizami Gəncəvinin 870 illiyi haqqında" sərəncamına əsasən, Heydər Əliyev Fondunun dəstəyi ilə ucaldılıb. Açılış mərasimində Birinci vitse-prezident Mehriban Əliyeva, Roma Şəhər Şurası Beynəlxalq şöbəsinin rəhbəri Serena Forni, Azərbaycanın İtaliyadakı Səfirliyinin nümayəndələri və digər rəsmi şəxslər iştirak ediblər.

Nizaminin 870 illiyi ilə bağlı elan edilmiş müsabiqənin nəticəsinə görə Xalq rəssamı Səlhab Məmmədov və heykəltəraş Əli İbadullayevin layihəsi qalib gəlir. Layihə Roma şəhərinin tarix və incəsənət üzrə komissiyası tərəfindən təsdiqlənir. Bu vaxt belə şərt irəli sürülür ki, heykəlin yaradılmasında yalnız yerli materiallardan – travertin və mərmərdən, eləcə də müəyyən çalarlı bürüncdən istifadə olunmalıdır. Sənətkarlar zəruri materialların axtarışında şəxsən iştirak ediblər. Heykəlin yaradılması ilə bağlı hazırlıq işləri, təbii ölçüdə gips modelin və altlığın hazırlanması Bakıda həyata keçirilib.

### Pekin



Nizami Gəncəvi ünvanlı abidənin qərar tutduğu şəhərlərdən biri də Pekindir. 2012-ci il dekabrın 6-da Çin Xalq Respublikasının paytaxtında sakinlərin və qonaqların daha çox ziyarət etdikləri Çaoyan parkında qoyulan büst dahi şairin irsinin bu ölkədə tanıdılmasında müstəsna rol oynayır.

Tuncdan qoyulmuş büstün müəllifi müxtəlif xalqların dahilərinin abidələrini hazırlamaqla məşhurlaşan heykəltəraş-rəssam, Pekindəki Cintay İncəsənət Mərkəzinin direktoru, professor Yüen Sikundur. Heykəltəraş Nizaminin büstünü hazırlayarkən şairin daxili aləmini təqdim etmək üçün onun əsərlərini mütaliə edib. Heykəl haqqında danışarkən müəllif qeyd edib ki, Nizami Gəncəvinin tərənnüm etdiyi ideyalar təkcə öz xalqına ünvanlanmayıb. Nizami öz əsərləri ilə bütün dünya xalqlarını ədalətə, humanizmə, saf sevgiyə çağırıb. Məhz ona görədir ki, Şərq poeziyasının görkəmli nümayəndəsi olan Nizamini bütün dünyada tanıyır, əsərlərini oxuyurlar, zəngin irsini araşdırırlar. Bu parkı ziyarət edənlər dünya ədəbi irsində Nizami Gəncəvi kimi bir dahinin olması barədə məlumat əldə edə bilərlər.

Qeyd edək ki, Prezident İlham Əliyevin 5 yanvar 2021-ci il tarixli sərəncamı ilə Azərbaycan ilə Çin arasında mədəni əlaqələrin inkişafında xidmətlərinə görə Yüen Sikun "Dostluq" ordeni ilə təltif olunub.

### Xarkov



Ukraynanın ikinci böyük şəhəri olan Xarkovda da Nizami Gəncəvinin abidəsi ucaldılıb. Abidə "Nizami Gəncəvi İli"ndə Azərbaycanın Ukraynadakı Səfirliyi, Xarkovdakı Fəxri Konsulluğumuz və Xarkov Şəhər Şurasının birgə dəstəyi ilə qoyulub.

Heykəlin müəllifi həmvətənimiz, Ukraynanın Xalq rəssamı Katib Məmmədovdur. Abidə şəhərin mərkəzi hissəsində, Feyerbax meydanında qoyulub.

2021-ci il sentyabrın 15-də keçirilən açılış mərasimində Azərbaycanın mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev, Ukraynadakı səfirimiz Elmira Axundova və Xarkov Şəhər Şurasının katibi İqor Terexov və digər rəsmilər, deputatlar, Azərbaycan diasporunun təmsilçiləri, şəhər sakinləri iştirak ediblər.

Yeri gəlmişkən, onu da qeyd edək ki, Azərbaycanın dahi şairinin Ukraynada daha bir abidəsi olacaq. Abidə Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə paytaxt Kiyevdə – Taras Şevçenko adına Kiyev Milli Universitetinin Nəbatat bağında qoyulacaq. Bununla bağlı ölkəmizin Ukraynadakı səfiri Elmira Axundova və Kiyev Milli Universitetinin rektoru Vladimir Buqrov arasında bu ilin iyununda memorandum imzalanıb. Bu heykəlin də müəllifi Katib Məmmədovdur.

***

Dünyadakı Nizami abidələri bunlarla bitmir. Lüksemburq, Təbriz, Dərbənd və s. şəhərlərdə, habelə Misirin məşhur İsgəndəriyyə kitabxanasında və digər qurum və mərkəzlərdə qüdrətli söz ustadının büst və heykəlləri var.

Dilindən, dinindən və milliyyətindən asılı olmayaraq bütün insanlığa xitab edən Nizami Gəncəviyə hələ neçə-neçə ölkədə və şəhərdə abidələr ucaldılacaq. Çünki Nizaminin toxunduğu mövzular bəşəriyyət üçün bütün dövrlərdə öz aktuallığını itirməyəcək.

**Nurəddin MƏMMƏDLİ**

## Xatirə təqvimi — 20-24 oktyabr

### Azərbaycan

**20 oktyabr 1906** – Əməkdar artist İbrahim Ağahüseyn oğlu Hüseynov (Şünasi; 1906-1961) Bakıda doğulub. Musiqili Komediya, Akademik Dram teatrlarında çalışıb.

**20 oktyabr 1910** – İlk azərbaycanlı qadın teatr rəssamlarından biri İzzət Əli qızı Seyidova (1910 – 30.11.1973) anadan olub. Leninqrad Boyakarlıq, Heykəltəraşlıq və Memarlıq İnstitutunda oxuyub, 1938-ci ildən Opera və Balet Teatrında fəaliyyət göstərib.

**20 oktyabr 1913** – Tanınmış şair, respublika Dövlət mükafatı laureatı Əhməd Cəmil (Əhməd Səttar oğlu Cəmilzadə; 1913 – 27.9.1977) İrəvanda doğulub. Ədəbi nəşrlərə rəhbərlik edib. Rus, Ukrayna, gürcü, belarus, özbək şairlərinin əsərlərini Azərbaycan dilinə tərcümə edib.

**20 oktyabr 1917** – Xalq artisti, opera müğənnisi İdris Fərhad oğlu Ağalarov (1917 – 4.5.1975) Tiflisdə doğulub. 1937-ci ildən Akademik Opera və Balet Teatrının solisti olub.

**20 oktyabr 1922** – Xalq artisti, müğənni Şövkət Feyzulla qızı Ələkbərova (1922 – 7.2.1993) anadan olub. Məlahətli səsi ilə Azərbaycan musiqisini dünyanın bir sıra ölkələrində tanıdıb. Bülbül adına Orta İxtisas Musiqi Məktəbində dərs deyib.

**20 oktyabr 1995** – Əməkdar artist Mustafa Hüseyn oğlu Sərkarov (1905-1995) vəfat edib. Gəncə Dram Teatrında aktyor, truppa müdiri işləyib.

**21 oktyabr 1932** – Xalq şairi, ədəbiyyatşünas Xəlil Rza Ulutürk (Xəlil Rza oğlu Xəlilov; 1932 – 22.6.1994) Salyan rayonunun Pirəbbə kəndində anadan olub. 1988-ci ildə başlanan milli azadlıq hərəkatında iştirak edib, 1990-cı ilin 20 Yanvar qırğınından sonra həbs edilib, Moskvada Lefortovo həbsxanasında saxlanılıb. Kitabları: "Hara gedir bu dünya", "Məndən başlanır vətənim" və s.

**21 oktyabr 1932** – Əməkdar mədəniyyət işçisi, aşıq Kamandar Həmid oğlu Əfəndiyev (1932 – 26.10.2000) Gürcüstanın Marneuli rayonunun Kürüstü Kəpənəkçi kəndində doğulub. 1987-ci ildə Tbilisidə Beynəlxalq yaradıcılıq festivalının laureatı olub.

**21 oktyabr 1938** – Ədəbiyyatşünas alim, şair Əmin Abid (Əmin Mütəllib oğlu Əhmədov; 1898–1938) vəfat edib. Azərbaycan ədəbiyyatı tarixinə dair monoqrafiyaların, milli-azadlıq ruhlu şeirlərin müəllifidir. Repressiya qurbanı olub.

**21 oktyabr 1941** – Əməkdar incəsənət xadimi, aşıq Hüseyn Bozalqanlı (Hüseyn Cəfərqulu oğlu Quliyev; 1863-1941) vəfat edib. Tovuz rayonunun Bozalqanlı kəndində anadan olub.

**22 oktyabr 1919** – Bəstəkar Ərtoğrol Cavid (Rasizadə; 1919 – 14.10.1943) anadan olub. Böyük şair və dramaturq Hüseyn Cavidin oğludur. Romans və mahnılar bəstələyib. Azərbaycan xalq mahnılarını nota köçürüb.

**22 oktyabr 1920** – Nasir Məmməd Aranlı (Məmməd Salman oğlu Ağayev; 1920-1950) Ağcabədidə anadan olub.

**22 oktyabr 1921** – Azərbaycan xalçaçılıq sənətinin görkəmli nümayəndəsi, Xalq rəssamı Kamil Müseyib oğlu Əliyev (1921 – 1.3.2005) İrəvan şəhərində doğulub. "Füzuli", "Nəsimi", "Nizami" portret-xalçalarının müəllifidir.

**22 oktyabr 1929** – Tanınmış filosof, akademik Fuad Feyzulla oğlu Qasımzadə (1929 – 3.8. 2010) Bakıda doğulub. Böyük mütəfəkkir şair M.Füzulinin fəlsəfi dünyagörüşü ilə bağlı tədqiqatların müəllifidir.

**22 oktyabr 1940** – Tərcüməçi, publisist, Əməkdar jurnalist Mailə Balabəy qızı Muradxanlı (1940-2010) Salyan şəhərində anadan olub.

**22 oktyabr 1970** – Azərbaycanda kukla teatrının yaradıcılarından biri, aktyor, rejissor Molla Ağa Bəbirli (15.9.1905 – 1970) vəfat edib.

**22 oktyabr 1990** – Əməkdar artist Narınc Murad qızı Məlikova (1917–1990) vəfat edib. Füzuli və Ağdam teatrlarında aktrisa kimi fəaliyyət göstərib.

**22 oktyabr 2020** – Əməkdar mədəniyyət işçisi, şair İsmayıl Cabir oğlu Dadaşov (23.3.1957 – 2020) vəfat edib. "Azərbaycanfilm"də musiqi redaktoru işləyib.

**23 oktyabr 1953** – Tanınmış xanəndə Səxavət Əmirxan oğlu Məmmədov (1953 – 30.9.1991) Ağdam rayonunun Abdal-Gülablı kəndində doğulub. Xalq mahnıları, muğam və təsniflərin mahir ifaçısı olub. Avtomobil qəzasında dünyasını dəyişib.

**24 oktyabr 1882** – Böyük şair-dramaturq Hüseyn Cavid (Hüseyn Abdulla oğlu Rasizadə; 1882 – 5.12.1941) Naxçıvanda anadan olub. Azərbaycan ədəbiyyatında ilk mənzum dramların, tarixi-fəlsəfi pyeslərin ("İblis", "Topal Teymur", "Şeyx Sənan", "Xəyyam" və s.) müəllifidir. 1938-ci ildə repressiya olunub, 1941-ci ildə Sibirdə sürgündə vəfat edib. 1982-ci ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə nəşi Vətənə gətirilərək Naxçıvanda dəfn olunub.

**24 oktyabr 1923** – Tanınmış aktyor Dadaş Nadir oğlu Kazımov (1923-1992) Bakıda doğulub. 1956-cı ildən Musiqili Komediya Teatrında çalışıb, filmlərdə çəkilib.

**24 oktyabr 1928** – Xalq artisti, bəstəkar İbrahim Qurban oğlu Məmmədov (1928-1993) Bakıda doğulub. Müxtəlif janrlarda əsərlərin, uşaqlar üçün "Tülkü və Alabaş" opera-baletinin müəllifidir. Azərbaycan Dövlət Konservatoriyasının professoru olub.

**24 oktyabr 1929** – Musiqişünas, sənətşünaslıq namizədi, Əməkdar müəllim Solmaz Cəlal qızı Qasımova (1929-2016) Bakıda doğulub. Bakı Musiqi Akademiyasının professoru olub.

**24 oktyabr 1929** – Ədəbiyyatşünas alim, professor Şəmistan Abdu oğlu Mikayılov (1929-2018) Gürcüstanın Bolnisi rayonu Faxralı kəndində doğulub. Ədəbiyyat dərsliklərinin müəllifidir.

**24 oktyabr 1931** – Əməkdar mədəniyyət işçisi Rimma Əli qızı Abdullayeva (1931-2017) Ağdam rayonunda doğulub. "Azərbaycanfilm" Kinostudiyasında film direktoru vəzifəsində işləyib.

### Dünya

**20 oktyabr 1854** – Fransız şairi, poeziyada simvolizmin banilərindən biri Artur Rembo (Jean Nicolas Arthur Rimbaud; 1854-1891) anadan olub.

**20 oktyabr 1919** – Başqırd şairi Mustay (Mustafa) Kərim (1919-2005) anadan olub.

**21 oktyabr 1833** – İsveçli mühəndis, ixtiraçı, Nobel mükafatlarının təsisçisi Alfred Nobel (Alfred Bernhard Nobel; 1833-1896) Stokholmda doğulub.

**21 oktyabr 1928** – Tatar əsilli Rusiya aktyoru Radner Zinyatoviç Muratov (1928-2004) anadan olub. Filmləri: "Uğur centlmenləri", "Qızıl buzov" və s.

**22 oktyabr 1811** – Macar bəstəkarı Ferens List (Ferenc Liszt; 1811 – 31.7.1886) anadan olub. Məşhur əsərləri: "Faust" simfoniyası, "Macar" rapsodiyası, "Prelüdlər".

**22 oktyabr 1870** – Rus yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1933) İvan Alekseyeviç Bunin (1870 – 8.11.1953) anadan olub.

**22 oktyabr 1919** – İngilis yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (2007) Doris Lessinq (Doris Lessing; 1919 – 17.11.2013) İranın Kirmanşah şəhərində doğulub. Atası İranda ingilis ordusunun zabiti olub.

**23 oktyabr 1920** – İtalyan uşaq yazarı Canni Rodari (Gianni Rodari; 1920-1980) anadan olub. "Çipollinonun sərgüzəştləri" əsəri ilə məşhurlaşıb.

**23 oktyabr 1844** – Alman rəssamı Vilhelm Leybl (Wilhelm Maria Hubertus Leibl; 1844-1900) anadan olub.

**24 oktyabr 1882** – Macar bəstəkarı İmre Kalman (1882-1953) anadan olub. "Silva", "Sirk şahzadəsi", "Monmartrın bənövşəsi" operettalarının müəllifidir.

**24 oktyabr 1911** – Məşhur rus aktyoru, rejissor, SSRİ Xalq artisti Arkadi İssakoviç Raykin (1911-1987) anadan olub.

**Hazırladı: Vüqar ORXAN**

# "Biz" Türk Dünyası Sənədli Film Festivalında mükafata layiq görülüb

Xəbər verildiyi kimi, VI Türk Dünyası Sənədli Film Festivalına yekun vurulub. Filmlərin qəbulu bu ilin aprelində elan olunan festivalın qala gecəsi və mükafatlandırma mərasimi oktyabrın 15-də İstanbulda keçirilib.

"Dünya dili türkcə" şüarı altında keçirilən festivala tələbə və peşəkar nominasiyası üzrə "Türk mədəniyyəti" və "Türkün dünyaya baxışı" mövzularında ümumilikdə 13 ölkədən 226 sənədli film təqdim olunub. Tələbə nominasiyası üzrə 10, peşəkar nominasiya üzrə 16 film final mərhələsinə keçib. Ölkəmizdən festivalın final mərhələsində "Biz", "Son sütun", "Hədiyyə" və "Sonuncu" filmləri iştirak edib.

Mədəniyyət Nazirliyinin dəstəyi ilə Bakı Media Mərkəzi və Cəfər Cabbarlı adına "Azərbaycanfilm" Kinostudiyası tərəfindən istehsal olunan "Biz" filmi mükafata layiq görülüb. "Münsiflər heyəti təşviq" mükafatı Bakı Media Mərkəzinin icraçı direktoru Orman Əliyevə təqdim edilib.




"Biz" tarixi-sənədli filmi Azərbaycanın 44 günlük Vətən müharibəsinə həsr olunub. Ekran əsərinin ideya müəllifi və rejissoru Orman Əliyev, prodüseri "Azərbaycanfilm"in direktoru Fariz Əhmədov, operatorları Əli Əliyev və Ziya Babayev, səs rejissoru Azad Vəliyev, redaktorları Ayaz Mirzəyev və İlham Bərxudar, montajçısı Əsgər Rəhimovdur.

Filmdə Vətən müharibəsi dövründə müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə qəhrəmancasına döyüşən Azərbaycan əsgərinin, eləcə də arxa cəbhədə sadə vətəndaşların bu tarixi Qələbənin əldə olunmasında rolu əks etdirilib. Müharibədə baş verən taleyüklü hadisələri məhz onlar – əsgərlər, həkimlər, təqaüdçülər, bloger və jurnalistlər danışırlar və həmin vaxt keçirdikləri hissləri tamaşaçı ilə bölüşürlər.

Qeyd edək ki, festival Türk Dünyası Jurnalistlər Federasiyasının təşkilatçılığı, Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə reallaşıb.

Mükafat qazanan filmlər "Dildə birlik – 9 ölkə – 9 şəhər – 1 festival" devizi ilə iştirakçı ölkələrdə nümayiş olunacaq.

# "Evdə tək"in yeni versiyası

## Treyleri yayımlanıb

ABŞ-ın "20th Century Studios" kino şirkəti "Evdə tək" filminin remeykinin (yeni versiyasının) treylerini yayımlayıb.

Ekran işində baş rolu 12 yaşlı aktyor Arçi Yeyts canlandırıb. Filmin premyerasının 12 noyabrda keçirilməsi planlaşdırılır. Xatırladaq ki, Arçi "Coco dovşan" filmində oynadığı obrazla tanınıb.




"Evdə tək" filmi 1990-cı ildə işıq üzü görüb. Makaley Kalkinin baş rolda çəkildiyi ekran əsəri ABŞ tarixində ən yüksək gəlirli Milad bayramı filmi olub. Film "Oskar" və "Qızıl qlobus" mükafatlarına layiq görülüb.

Bu uğurdan sonra "Evdə tək-2: Nyu-Yorkda itirilmiş", "Evdə tək-3", "Evdə tək-4" və "Evdə tək-5: Bayram soyğunu" filmləri çəkilib.

Yeni film "Evdə tək: ev, əziz ev" ("Howe Sweet Home Alone") adlanır.

**LALƏ**

# Romada Vətən müharibəsi şəhidləri anılıb

## "Üçüncü günün adamı" filmi nümayiş olunub

Azərbaycanın Vətən müharibəsi şəhidlərinin xatirəsinin anılması ilə əlaqədar İtaliyada keçirilən silsilə tədbirlər çərçivəsində ölkənin Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyi Əməkdaşlarının həyat yoldaşları Assosiasiyası (ACDMAE) tərəfindən təşkil olunan festivalda "Üçüncü günün adamı" tammetrajlı bədii filmi nümayiş etdirilib.



Filmin nümayişindən əvvəl çıxış edən assosiasiyanın prezidenti Milena Guarino Padula və ACDMAE Film Festivalının təsisçisi Puççi Rastrelli 2017-ci ildə "Əli və Nino" filminin nümayişi ilə bu festivalın əsasının qoyulduğunu, həmin filmin izləyicilərdə Azərbaycanın tarixi və mədəniyyətinə böyük maraq oyatdığını bildiriblər.

Ölkəmizin İtaliyadakı səfiri Məmməd Əhmədzadə tədbirin Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 30 illiyi və ərazi bütövlüyümüzün bərpası ilə başa çatan Vətən müharibəsinin ildönümü münasibətilə təşkil edildiyini vurğulayıb. Diplomat bildirib ki, nümayiş olunacaq filmdə də otuz ilə yaxın Vətən həsrəti ilə yaşamış azərbaycanlıların keçirdiyi iztirabın, hər an öz doğma torpaqlarına qayıtmaq istəyinin gücünü hiss etmək mümkündür.

Sonra "Üçüncü günün adamı" bədii filmi (quruluşçu rejissor Babək Şirinsifət, ssenari müəllifi Maqsud Qarayşa, quruluşçu operator Rafiq Quliyev) nümayiş olunub. Ekran əsəri 2017-ci ildə "Azərbaycanfilm"də istehsal olunub.

Uzunmüddətli cəzaya məhkum edilmiş filmin qəhrəmanı azadlığa çıxdıqda yaxınları dünyadan köçmüş, doğma rayonu isə işğal edilmişdi. Təsadüf nəticəsində tanış olduğu həmyerlisi ilə birlikdə təmas xəttini keçərək Kəlbəcərdəki kəndinə gedib çıxan qəhrəman, nəhayət, öz arzusuna çatır – ata-anasının qəbirlərini ziyarət edə bilir...

# Ölkəmizdəki polyak memarlığı izlərinin turistik tanıtımı

Azərbaycanda polyak memarların ərsəyə gətirdiyi abidələrdən, həmçinin ölkəmizdə yaşayıb-yaratmış məşhur polyaklardan bəhs edən broşür hazırlanıb. Layihə Azərbaycan Turizm Bürosunun Polşanın ölkəmizdəki səfirliyi ilə əməkdaşlığı çərçivəsində ərsəyə gəlib.

Azərbaycanda polyak izlərinin turistik tanıtımı məqsədilə hazırlanmış broşürdə XIX əsrin sonu – XX əsrin əvvəlində neft bumu dövründə Bakının xüsusi görünüşünü formalaşdıran 4 görkəmli polyak memar – İosif Qoslavski, İosif Ploşko, Kazimir Skureviç və Yevgeni Skibinskinin fəaliyyətindən, həmçinin neftçıxarma üzrə mütəxəssis Pavel Pototskinin ölkənin neft sənayesinə verdiyi töhfələrdən bəhs olunur.

Nəşrdə polyak memarların layihə müəllifi olduqları tikililər – Bakı Şəhər İcra Hakimiyyəti binası, Əlyazmalar İnstitutu, AMEA Rəyasət Heyətinin binası – İsmailiyyə, Səadət sarayı, Baş Prokurorluq binası, Mstislav Rostropoviçin Ev-Muzeyinin, Memarlar İttifaqının binası, Milli Tarix Muzeyi, Dövlət Kukla Teatrı, Bakı Dəmiryolu Vağzalının binası və digər memarlıq nümunələri detallı məlumatlarla təqdim olunur. Bakının İstiqlaliyyət, İslam Səfərli, Murtuza Muxtarov, Nizami və Polşa memarları küçələrində polyak memarları tərəfindən inşa edilmiş binalar haqda geniş məlumat verilir.




Həmçinin XX əsrin əvvəllərində Şamaxı, Gəncə, Qusar və Zaqatalada polyak memarlığı üslublarında binaların tikildiyi, şəhər planlarının hazırlandığı diqqətə çatdırılır.

# "BBC World News" kanalı "Azərbaycanı kəşf et"məyə davam edir




"BBC World News" televiziya kanalında "Azərbaycanı kəşf et – gələcəyə gedən yol" adlı videoçarx yayımlanır. Videoçarxda zəngin mədəni irsə malik olan Azərbaycanın tarixi və müasir memarlıq abidələrindən, füsunkar təbiətindən, nəqliyyat və texnoloji imkanlarından bəhs olunur.

Qeyd edilir ki, Bakı şəhərində yeni göydələnlər, ticarət mərkəzləri, ən müasir biznes mərkəzləri və hotellər tikilməkdədir. Həmçinin ölkəmizin dəniz qapıları olan, eyni zamanda Bakı şəhərini beynəlxalq nəqliyyat-kommunikasiya mərkəzinin qovşağına çevirən Beynəlxalq Dəniz Ticarət Limanının görüntüləri də nümayiş etdirilir.

Videoda Şəki Xan sarayına dair kadrlar, eləcə də otuzillik işğaldan sonra azad edilən Şuşanın mənzərələri yer alıb.

# "Bakı hotelləri" Parisdə sərgilənib

Parisdəki Azərbaycan Mədəniyyət Mərkəzində (AMM) fotoqraf Maya Bağırovanın "Bakı hotelləri" sərgisi açılıb.



Sərgi "Prix Villegiature – 2020-2021" – ən yaxşı hotel, hotel dizaynı və memarlığı, spa, xidmət kimi nominasiyalar üzrə mükafatlandırma tədbiri çərçivəsində təşkil edilib. Sərgidə azərbaycanlı fotoqrafın çəkdiyi fotolar – Bakıdakı hotellərin görüntüləri nümayiş olunub.

AMM-də təşkil olunan "Prix Villegiature – 2020-2021" mərasimində "Fairmont Baku" hoteli "ən yaxşı daxili dizayn və arxitektura nominasiyası" üzrə mükafatlandırılıb. Qeyd edək ki, 2014-cü və 2017-ci illərdə "Four Seasons Baku" və Qəbələdəki "Chenot Palace Health Wellness Hotel" "Prix Villegiature"in ən yaxşı spa, kurort və hotel nominasiyaları üzrə mükafata layiq görülüb.

Tədbirdə Azərbaycanın Fransadakı səfiri Rəhman Mustafayev ölkəmiz və "Fairmont Baku" hoteli haqqında məlumat verib. "Fairmont" hotelini təmsil edən "Accor" dizayn şirkətinin vitse-prezidenti Federico Toresi Riba mükafatı qəbul edərək təşəkkürünü bildirib.

"Prix Villegiature" müsabiqəsi 2003-cü ildə təsis olunub və hotelçilik üzrə 21 nominasiyada mükafatlar təqdim edir. Mükafatçılar jurnalistlərdən ibarət münsiflər heyətinin səsverməsi yolu ilə müəyyən edilir.

# "Kremerata Baltika"dan "Nizami ili"nə musiqi töhfəsi

## Orkestrin ötən il təxirə salınan Bakı konserti gerçəkləşəcək

Noyabrın 30-da Heydər Əliyev Mərkəzində "Qremmi" mükafatı laureatı "Kremerata Baltika" kamera orkestrinin konserti olacaq.




"Nizami Gəncəvi İli" çərçivəsində keçiriləcək klassik musiqi gecəsində Əməkdar artist Fuad İbrahimovun dirijorluğu ilə F.Şopen, F.Mendelson, F.Əmirov və digər tanınmış bəstəkarların əsərləri səsləndiriləcək.

Konsertin solistləri beynəlxalq müsabiqələr laureatları – Azərbaycanın Əməkdar artisti Elvin Xoca Qəniyev (skripka) və latviyalı musiqiçi, 17-ci Beynəlxalq Frederik Şopen Musiqi Müsabiqəsinin diplomantı Georgi Osokin (fortepiano) olacaqlar.

Xatırladaq ki, orkestrin Heydər Əliyev Mərkəzində konserti 2020-ci ilin mart ayına nəzərdə tutulsa da, pandemiya səbəbindən təxirə salınmışdı.

Məşhur skripka ifaçısı Gidon Kremer 1997-ci ildə yaratdığı "Kremerata Baltika" kamera orkestrinə Latviya, Litva və Estoniyadan 23 istedadlı gənc musiqiçini cəlb edib. Bu gün Avropanın tanınmış orkestrlərindən olan "Kremerata Baltika" 50-dən çox ölkədə konsert proqramları ilə çıxış edib.

"Kremerata Baltika"nın Bakı konsertinə biletləri Heydər Əliyev Mərkəzinin kassasından, iTicket.az saytı və kassalarından əldə etmək mümkündür. Onu da qeyd edək ki, konserti izləməyə gələnlərdən COVİD-19 pasportu və ya immunitet sertifikatı tələb olunacaq.

# Müstəqilliyin Bərpası Günü və Nizaminin yubileyi münasibətilə Ankarada konsert

Ankarada 18 Oktyabr – Azərbaycanda Müstəqilliyin Bərpası Günü və dahi şair Nizami Gəncəvinin 880 illiyi münasibətilə mərasim təşkil olunub.

Azərbaycanın Türkiyədəki Səfirliyi, UNESCO üzrə Azərbaycan və Türkiyə milli komissiyalarının birgə təşkilatçılığı ilə keçirilən tədbirdə rəsmi şəxslər, o cümlədən Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidovun və insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyevanın rəhbərliyi ilə Ankarada səfərdə olan nümayəndə heyətləri iştirak ediblər.

Rəsmi hissədə Türkiyənin mədəniyyət və turizm nazirinin müavini Sərdar Can, ölkəmizin Ankaradakı səfiri Rəşad Məmmədov və UNESCO üzrə Türkiyənin Milli Komissiyasının sədri vəzifəsini icra edən Dəniz Çakar çıxış ediblər.

Sonra musiqi proqramı təqdim olunub. Konsertdə əvvəlcə Xalq artisti Mənsum İbrahimov Xalq artisti Elçin Həşimov (tar), Əməkdar artist Kamran Kərimov (nağara) və Pərviz Fərhadovun (kamança) müşayiəti ilə muğam və xalq mahnılarını ifa edib. Konsertin ikinci bölümündə pianoda Gülər Dəmirovanın müşayiətində Demet Gürhan və təbrizli Xosrov Hakan Amirinin vokal ifaları dinlənilib.

# Dövlət Rəqs Ansamblı onlayn festivalda birinci yeri tutub

Azərbaycan Dövlət Rəqs Ansamblı Braziliyada keçirilən "Nueva Plata Beynəlxalq Folklor Festivalı"nın (FİDAF) qalibi seçilib. Onlayn formatda keçirilən sənət yarışında müxtəlif kateqoriyalar üzrə 18 qrup iştirak edib.




Festivalda ikinci yeri Çin Xalq Respublikasının "Beijing Dance Academy", üçüncü yeri Moldovanın "Baletul Na ţional JOC" qrupları tutub.

"Ən yaxşı xoreoqrafiya" mükafatına Macarıstandan "Duna Art ansamblı" layiq görülüb. Münsiflər heyətinin qərarına əsasən ən yaxşı mahnını Moldovanın "Baletul Na ţional JOC" qrupu səsləndirib. Münsiflər heyəti xüsusi mükafatı Meksikanın Quadalaxara Universitetinin "Folklor Balet qrupu"na təqdim edib. Festivalın fəxri adına isə Slovakiyadan "Pulse-Poddukel bədii ansamblı" layiq görülüb.

## Elan

SSRİ Nazirlər Soveti yanında Ali Attestasiya Komissiyasının 13 dekabr 1991-ci il tarixli qərarı ilə Nuriyev Sədi Şəvaqət oğluna verilmiş filologiya elmləri doktoru alimlik dərəcəsi diplomu (elmlər doktoru diplomu, DT № 011498, Moskva) itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279
**İndeks:** 0187
**Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5146
**Sifariş:** 2073
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.